www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 iyul 2016-cı il Bazar ertəsi № 160 (6481) Qiymət 60 qəpik

**Xəbər**

## Sumqayıtda dəhşətli olay - maşında iki sevgilinin meyiti tapıldı

yazısı səh.12-də

**Gündəm**

### MTN-çilərin intiharında "mahmudovçu"ların izi araşdırılır



Həbsdəki MTN generalı intihar edən polkovnikin qardaşına nə deyib?

yazısı səh.10-da

### Bankların bağlanmasının pərdəarxası: Mərkəzi Banka ittihamlar...

yazısı səh.13-də

*Ekspert:*

### "Ankara-Vaşinqton münasibətlərində gərginlik Azərbaycana da təsir göstərə bilər"

yazısı səh.9-da

### Nazirliyin həbsdəki aparat rəhbərinin səhhəti pisləşib

yazısı səh.2-də

### Rusiyalı politoloqdan xəbərdarlıq: "Qarabağda müharibə ehtimalı dəfələrlə artacaq, əgər..."

yazısı səh.11-də

### Gənclər ali məktəbə daxil olanda sevinir, qurtaranda isə iş tapmırlar - çözüm nədir?

yazısı səh.12-də

*Toğrul İsmayıl:*

### "WikiLeaks"-in açıqlamaları ciddi, əsaslı məlumatlar deyil"

yazısı səh.4-də

### Ermənilərdən növbəti xain hərəkət - düşmən Qarqar çayı ilə top mərmisi axıdır

yazısı səh.10-da

### Qarabağı qaytarmağın müqabilində Rusiyaya hara kimi güzəşt edə bilərik? - iki fərqli rəy

yazısı səh.3-də

### Eşşək ətindən kolbasanı xərçəng yaradan tomat pastaları əvəzləyib - SOS

yazısı səh.12-də

## Prezidentlərin kritik avqust görüşləri: döyüşə, yoxsa dönüşə doğru?

# QARABAĞ ÜÇÜN BÖYÜK FÜRSƏT AYI - YENİ ŞANS PƏNCƏRƏSİ...

"Müharibə, yoxsa sülh" dilemması Əliyev-Sərkisyan, Ərdoğan-Putin görüşlərində çözülə bilər; Ankara görüş öncəsi nazirlərini Moskvaya göndərir; **rusiyalı analitik:** "Proseslər iki ölkə arasında böyük müttəfiqlik müqaviləsinin imzalanmasına aparır"; **türkiyəli siyasətçi:** "NATO-nu Türkiyə parçalayacaq..."




yazısı səh.8-də

## Türkiyədə növbəti çevriliş cəhdi ola bilər: təhlükə realdır

Rəsmi Ankara ABŞ-la gərginləşməkdə olan münasibətlərin fonunda preventiv addımlar atır...

yazısı səh.5-də



### Rauf Arifoğlunun 50 illik yubiley tədbiri keçirildi

yazısı səh.3-də



*Fazil Mustafa:*

### "O zaman kimin iki evi varsa, birini evi olmayana verməlidir"

yazısı səh.7-də



### Azər Tağıyev prezidentin qovduğu şəxsi Vəkillər Kollegiyasına üzv edib

yazısı səh.10-da



## Vəli Əsgərovun apelyasiya şikayətinə baxılacaq

**Sabah, iyulun 26-da Naxçıvan Apelyasiya Məhkəməsində Naxçıvan Muxtar Respublikasının sabiq milli təhlükəsizlik naziri Vəli Əsgərovun barəsindəki hökmdən verdiyi apelyasiya şikayətinə baxılacaq.**

V.Əsgərov Naxçıvan Hərbi Məhkəməsinin hökmü ilə vəzifə səlahiyyətlərindən sui-istifadə və mənimsəməkdə təqsirləndirilərək 14 il azadlıqdan məhrum edilib. V.Əsgərov ittihamları qəbul etmir və barəsində olan hökmdən apelyasiya şikayəti verib. Bu haqda V.Əsgərovun vəkili Vüqar Xasayev məlumat verib. Vəkil bildirib ki, şikayətdə sabiq nazirə bəraət istənilib. Sənəd Naxçıvan Apellyasiya Məhkəməsinə təqdim edilib.

V.Ələsgərov Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə) və 309.1-ci (vəzifə səlahiyyətlərini aşma, vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etmək) maddələri ilə ittiham olunub.

❑ **E.MƏMMƏDƏLİYEV**



## Ərdoğan: "Mən diktator deyiləm"

**Uğursuz çevriliş cəhdinin ardından Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan iyulun 23-də ilk dəfə millət vəkilləri qarşısına çıxıb. Virtualaz.org Euronews telekanalına istinadən bildirir ki, iclas zalı dağıdıldığından prezident mərasim zalında çıxış etməli olub.**

Ərdoğan çıxışında çevriliş cəhdindən sonra onun diktator rejimi qurmağa başladığı barədə iddiaları təkzib edib.

"Biz hadisənin video-görüntülərini Xarici İşlər Nazirliyimiz vasitəsilə bütün dünyaya yayacağıq. Ümid edirəm ki, həmin kadrları görənlər xalq tərəfindən seçilmiş bir hökuməti asanlıqla diktatura, xalq tərəfindən seçilən prezidenti isə diktator adlandırmağa son qoyacaqlar", - deyə Türkiyə lideri vurğulayıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Nazirliyin həbsdəki aparat rəhbərinin səhhəti pisləşib

### Vidadi Zeynalovun vəkili: "2 ay əvvəl müraciət etməyimizə baxmayaraq heç bir tədbir görülmür"

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin keçmiş aparat rəhbəri, hazırda həbsdə olan Vidadi Zeynalovun səhhətində problemlər var. Bu haqda musavat.com-a onun vəkili Ceyhun Yusifov məlumat verib.**



Onun sözlərinə görə, hüquqlarını müdafiə etdiyi şəxsin səhhəti qənaətbəxş deyil: "Dəfələrlə müraciətlərimizə baxmayaraq Vidadi Zeynalovu Ədliyyə Nazirliyinin tibb müəssisələrindən birində müayinədən keçirib müvafiq müalicə təyin etmirlər. Onun Penitensiar Xidmətin Tibb Müəssisəsinə köçürülməsi bizə məlum olmayan səbəblərdən həyata keçirilmir. Səhhətindəki problemlə əlaqədar olaraq o, görüş otağına gələrkən çox əziyyət çəkir. O, həbs edilməmişdən əvvəl diz qapağından əməliyyat olunub. Həmçinin, onun belində ağır dərəcəli onurğa yırtığı (qrija) və sinir ağrıları var. Buna görə də Vidadi Zeynalov otura bilmir. O, ya yataqda uzanmalı, ya da ayaq üstə dayanmalıdır. Bu da ona çətinliklər yaradır. Vidadi Zeynalov mənə şiddətli ağrılarının olduğunu, buna görə gecələr yata bilmədiyini dedi. Saxlama şəraiti onun səhhətində çox ağır şəkildə özünü göstərir. 2 ay əvvəl müraciət etməyimizə baxmayaraq heç bir tədbir görülmür".

Vəkil bildirib ki, V.Zeynalov xüsusi avadanlıqların olduğu tibb müəssisəsində müayinə olunmasını istəyir.

Qeyd edək ki, V.Zeynalov 2015-ci ilin noyabr ayının 13-də həbs edilib. Baş Prokurorluğun yaydığı məlumata görə V.Zeynalov Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin aparat rəhbəri olaraq ayrı-ayrı şəxslərlə əlbir olaraq 73 milyon 590 min manat pul vəsaitini mənimsəmək-də, israf edib. Ona qarşı Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə) maddələri ilə ittiham irəli sürülüb. V.Zeynalov Binəqədi Rayon Məhkəməsinin qərarı ilə ilkin olaraq 3 ay müddətinə həbs edilib. Sondaran müddət bir neçə dəfə artırılıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

## G20 ölkələrin "qara siyahısı"nı hazırlayacaq

**Növbəti G20 sammitinə qədər vergi informasiyalarının mübadiləsində iştirak etməyən ölkələrin "qara siyahısı" hazırlanacaq. APA-nın "RİA Novosti" agentliyinə istinadən verdiyi məlumata görə, bunu G20 ölkələrinin maliyyə qurumlarının və Mərkəzi banklarının rəhbərlərinin görüşündən sonra Rusiya maliyyə nazirinin müavini Sergey Storçak bildirib.**

Növbəti G20 sammiti 2017-ci ilin iyulunda keçiriləcək. S. Storçak deyib ki, G20 ölkələri vergi informasiyalarının mübadiləsində iştirak etməyən ölkələrlə əlaqədar məsələ ilə ciddi məşğul olmağa qərar verib: "Qara siyahı" növbəti sammitdə hazır olmalıdır. Bu, görüşün yekun Bəyannaməsində də yer alıb".

Rusiya maliyyə nazirinin müavini qeyd edib ki, "qara siyahı"nın əsas kriteriyaları da artıq məlumdur. Sorğu üzrə informasiya mübadiləsində, avtomatik informasiya mübadiləsində iştirak etməyən ölkələr "qara siyahı"ya salınacaq. Hələ ki, "qara siyahı"ya salınacaq ölkələrlə əlaqədar cəza tədbirləri müəyyənləşdirilməyib və bu məsələyə növbəti mərhələdə baxılacaq.



## Bakıda avtobusun əzdiyi avstriyalı üzgüçü kompensasiya gözləyir

**Ötən il Bakıda Avropa Oyunlarının açılışına bir gün qalmış Olimpiya şəhərciyinin ərazisində avtobusun vurub əzdiyi avstriyalı sinxron üzgüçü Vanessa Sahinoviçin ailəsi hələ də kompensasiya ala bilmədiklərindən şikayətlənir. Virtualaz.org xəbər verir ki, bu haqda Avstriyanın "Der Standard" qəzeti yazır.**

Bakıda həmin qəzaya görə məsuliyyət daşıyanların məhkəmə prosesinin təcəzə yekunlaşdığı bir vaxtda avstriyalı sinxron üzgücü Vyananın Pfortshaym klinikasında əlil arabasında reablitasiya kursunu davam etdirir. Onun aşağı ətrafları iflic olub və hərəkət qabiliyyətini itirib. Ailəsi deyir ki, qızlarının bu vəziyyətə salınmasına görə kompensasiya hələ də ala bilməyiblər və iş məhkəmə baxışı mərhələsindədir.

16 yaşlı Vanessa Sahinoviç son bir ildə Avstriyanın kurort bölgələrində reablitasiya kursu keçib. Lakin onun hərəkət etmək qabiliyyəti bərpa olunmayıb. Reablitasiya kurslarında Vanessanı anas Azra müşayiət edib, dörd yaş kiçik qardaşı Benyamin isə atası Safetlə birlikdə evdə qalıb. Azra və Safet Bosniyadandır. Vanessanın anası satıcı, atası çilingər işləyir. Ailənin mənzili ikinci mərtəbədə yerləşir və anası deyir ki, bu, qızlarına əlil arabasında mənzilə qalxıb-düşməkdə əlavə çətinlik yaradır. Azra deyir ki, Vanessa payızda əlil arabasında məktəbə gedib-gələcək, orada üzgücü rəfiqələri ilə ünsiyyətdə olacaq.

Xatırladaq ki, qəzadan sonra Azərbaycan hökuməti avstriyalı idmançının müalicəsi üçün bütün tədbirləri görüb. Prezident İlham Əliyev idmançını Vyanaya çatdırmaq üçün öz təyyarəsini ayırıb, onun müalicə xərcləri təmin olunub. Lakin idmançının ailəsi qəzaya görə kompensasiya və reablitasiya xərclərinin ödənilməsini də istəyir. Ailənin vəkili qəzanı törədən sürücünün işlədiyi şirkətə qarşı iddia qaldırıb.

## Rusiya yığması tam heyətlə Olimpiadadan uzaqlaşdırıldı

**Dopinqlə bağlı ciddi nöqsanlara görə 387 idmançıdan ibarət Rusiya yığması tam heyətlə Rio-de-Janeyro Olimpiadasından kənarlaşdırılıb. APA-nın "Gazeta.ru"ya istinadən verdiyi xəbərə görə, bu barədə Britaniyanın "Daily Mail" nəşri məlumat yayıb.**

Nəşrin məlumatına görə, Beynəlxalq Olimpiya Komitəsi (BOK) Rusiyanın həyata keçirdiyi "dövlət dopinq proqramına" görə, ölkə yığmasının bütün heyətini cəzalandırmağa qərar verib. Mənbənin məlumatına görə, BOK-da Rusiyanı həmçinin, Cənubi Koreyada keçiriləcək Qış Olimpiya Oyunlarından da kənarlaşdırmaq niyyətindədirlər.

"BOK bununla dopinqin bütün idmana ağır zərbə olduğunu nümayiş etdirmək istəyir", - deyə mənbə bildirib.

Rusiya Olimpiya Komitəsi bundan əvvəl ölkə yığmasının tərkibinin təsdiqlənməsi üçün idmançıların tam siyahısını Rio-2016 Olimpiya Oyunlarının Təşkilat Komitəsinə göndərib.

Rio-2016 Olimpiya Oyunları 5-21 avqustda keçiriləcək.

## Bu gün Bakıda hava sərin olacaq

**İyulun 25-də Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Arabir yağış yağacağı gözlənilir. Gecə şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi axşam arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, havanın temperaturu gecə 20-24° isti, gündüz 27-30° isti, Bakıda gecə 21-23° isti, gündüz 28-30° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 75-85 % təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 21-22°, Buzovna, Mərdəkan, Şüvələndə 22-23°, Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacağı gözlənilir.

Bölgələrdə bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 31-36° isti, dağlarda gecə 12-17° isti, gündüz 19-24° isti olacağı gözlənilir.

YENİ MÜSAVAT
N 160 (6481) 25 iyul 2016

# "Bu qiyam deyildi"

## 15 iyul gecəsindən 10 gün ötdü - Türkiyədəki politoloqdan şok açıqlamalar; **Toğrul İsmayıl:** "Çevrilişin qarşısı alınıb, amma təhlükə sovuşmuş deyil"

**Türkiyədə 15 iyul gecəsi baş verən hərbi çevriliş cəhdindən 10 gün ötür. Hələ də hadisənin fəsadları aradan qalxmayıb, həbslər, araşdırmalar, ziyanlar davam edir. İstər mənəvi, istərsə də maddi cəhətdən qardaş ölkə bu prosesdə ciddi zərbə aldı. Türk xalqının dövlətçiliyin müdafiəsi istiqamətində hələ də meydanlarda olması hadisənin nə qədər ciddiliyinə bir işarədir.**

Günlər keçdikcə Amerika başda olmaqla, hərbi çevriliş cəhdində dünya güclərinin iştirakı ilə bağlı iddialar artmaqdadır. Hadisədə birbaşa adı hallanan Fətullah Gülənin ABŞ-ın Pensilvaniya ştatında yaşaması və rəsmi Vaşinqtonun onu Türkiyəyə qaytarmamaq yönündə bütün imkanlarından istifadə etməsi, eləcə də, həbs edilənlərin edam məsələsinin gündəmə gəlməsi hazırda əsas müzakirə mövzularıdır.

Türkiyədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayıl ilə prosesləri dəyərləndirdik.

***- Türkiyədə son 10 gündə baş verənləri necə qiymətləndirirsiz?***

- Bəzi məsələləri artıq aydın görürük. Bunlar Fətullah Gülənə və onun camaatına dolayı, birbaşa yolla bağlı olan qurumların bağlanması, ordu içərisində hadisədə iştirakçı olanların vəzifələrindən alınması, tutulmasıdır. Onların suçlu olub-olmamaları məhkəmə tərəfindən müəyyən ediləcək. 1200 xalqın tərəfinə keçən hərbiçi azad edilib. Yəni bunları qarışdırmaq olmaz. Çoxlarına elə gəlir ki, Türkiyədə hər kəsi tuturlar. Sadəcə hərbiçilər arasında həbs edilənlər çoxdur. Hüquq sisteminə Gülənçilərin daha çox girdiyi üzə çıxdı. Ali təhsil müəssisələrindən çıxarılanların sayı yüksəkdir. Qərarlarda gözaltına alınma müddətinin 30 günə qədər olması müəyyən edildi. Fövqəladə vəziyyət dövlətin əlini gücləndirir. Çevriliş cəhdində iştirakı olanlardan axtarışları davam edənlər də çoxdur. Helikopteri qaldıranlardan biri qadın pilotu idi ki, Yalovada həbs edildi. Bu məsələlər getdikcə davam edir. Hadisədə iştirak etməyən şəxslərin nədənsə qorxmalarına qətiyyən ehtiyac yoxdur. 10 gün içərisində bunları görürük. Bağlanan universitetlərin hamısı özəldir. Bunların bəziləri birbaşa və dolayısı yolla "Gülən camaatı"na bağlıdır. Ora işə düzəlmək olduqca çətin idi. "Camaata" bağlı olmadığın halda işə götürmürdülər. Ya "camaatın" üzvü olacaqdın, ya da onlara simpatiya göstərib, dediklərini etməli idin. Bağlanan universitetlər Fateh Universiteti istisna, elə də böyük deyillər. Təbii ki, elmi yanaşmada təhsil ocaqlarının bağlanmasına və müəllimlərin durumuna heyfsilənirəm. Ümid edirəm ki, bunlar qanunlar çərçivəsində həll olunacaq. Burada əsas məsələ günahsız insanların cəzalandırılmamasıdır.

***- Növbəti belə hadisə yaşana bilərmi?***

- Bunu dəqiq deyə bilmərəm. Çünki bunu demək üçün çoxlu məlumata sahib olmaq lazımdır. Amma səlahiyyətli şəxslər fövqəladə vəziyyət olmasına baxmayaraq, xalqı meydanlara çağırırlar, şəhərə qədər hər kəs meydandadır. Demək, bu ehtimal istisna deyil. Çevrilişin qarşısı alınıb, amma təhlükə tamamilə sovuşmuş deyil. Prezidentin köməkçisi, qvardiyası bu çevrilişin içərisində yer alıbsa, bu hadisənin nə qədər dərin olduğu göz önündədir. Xəyal etməyəcəyimiz qədər çox dərin və təhlükəli məsələdir. Mütəxəssis olaraq bunu deməyi özümə borc bilirəm ki, bu qiyam deyil, qiyam tamam başqa anlayışdır. Bu hərbi çevriliş cəhdidir. Qiyam nədənsə narazı olanların təşkil etdikləridir. Amma fikir verirsinizsə, Türkiyə hərbiçilər nə istəmişdilərsə, onları təmin etmişdi.



**"Türkiyə hökuməti ilə ABŞ arasında ciddi narazılıq yarana bilər"**

***- Gülənin taleyi maraq doğurur. Amerika onu geri qaytaracaqmı? Əks halda nələr baş verə bilər?***

- Amerika israrla qanunilik və işin texniki tərəfini gündəmə gətirir. Türkiyə isə məsələnin yalnız texniki tərəfini deyil, siyasi tərəfini də gündəmə gətirir. Burada siyasi tərəf ikili münasibətlər, Gülənin fəaliyyəti, onun bağlantıları, Türkiyə və Amerikadakı əlaqələridir. Bunların hamısı çox ciddi məsələlərdir. Amerika Güləni verib-verməyəcəyini dəqiq deyə bilmərəm. Açıqlamalar çox maraqlıdır. Amerika vermə məsələsini istisna etmir, amma bu məsələnin texnik tərəfinə daha çox diqqət ayırır. Türkiyə əllərində dəlil-sübutlar olduğunu deyir. Türkiyə tərəfdən ora hökumət heyəti gedəcək. Hətta prezident də olacaq. Görüşmələr olacaq, amma nəticəsinin necə olacağını demək çətindir. Amerika verməzsə, nə olacaq? Türkiyə hökuməti ilə ABŞ arasında ciddi narazılıq yarana bilər. Münasibətlər son illərdə onsuzda gərgindir. Amma daha da gərginləşə bilər. Bildiyiniz kimi, Türkiyədə hökumətdə təmsil olunanların əksəriyyəti bu çevriliş cəhdinin arxasında Amerikanın olduğunu deyirlər. Gülənin verilməməsi onların bu fikirlərinin topluma ciddi təsir edəcək. Onsuzda türk cəmiyyətində anti-amerikan əhval-ruhiyyəsi yüksəkdir. Bu hədsiz dərəcədə arta bilər.

***- Bunlar Türkiyənin Avropadan qopub, Rusiyaya yaxınlaşması anlamına gəlmirmi?***

- Bunu düşünmürəm. Türkiyəni sosial şəbəkələrdə düzgün qələmə vermirlər. Azərbaycanlılar da bu proseslərdə aktiv görünürlər. Guya burada qanun, ədalət yoxdur, bir nəfər nə edirsə, onu edir. Qınamıram azərbaycanlıları, çünki gördükləri odur. Türkiyə ciddi dövlətdir. Ərdoğan prezident olaraq güclü siyasətçidir. Amma bəzi məsələlər onun istəyindən asılı deyil. Türkiyə dünya beynəlxalq sisteminin bir parçasıdır. Üzərinə aldığı öhdəliklər var. Bunların hər birinin pozulması dövlət olaraq Türkiyənin imicinə ciddi zərbə vura bilər. Bunlar Türkiyəni Orta Doğu görmək istəyənlərin işinə yaraya bilər. Bu baxımdan inanmıram ki, Türkiyə birdəfəlik üzünü Qərbdən çevirib, başqa istiqamətə yönələr. Son illərdə Türkiyənin çoxtərəfli siyasət yürütdüyünü görürük. Amma Rusiya və Çinlə olan münasibətlər müttəfiqlik səviyyəsinə qədər yüksəlməyib. Diqqətlə yanaşdıqda, fərqli şeylərin ortaya çıxdığını görürük. Ruhunda imperialist olanlar Türkiyəni güclü görmək istəməzlər. Amma açıq şəkildə Türkiyə ilə münasibətləri pozmaq heç bir dövlətin işinə yaramır. Açıqlanan "WikiLeaks" sənədlərini ciddiyə almaq lazım deyil. Bundan əvvəl açıqlanan digər sənədlərdən sonra dünyada nələrin baş verdiyini görmüşük. "WikiLeaks"in açıqladıqları ciddi, əsaslı məlumatlar deyil. Bunların dəqiqliyini yoxlamaq gərəkir.

**"WikiLeaks"in açıqlamaları ciddi, əsaslı məlumatlar deyil"**

***- Həbs edilənlərin edam məsələsi gündəmdədir. Sizcə, Türkiyə Parlamenti hansı qərarı verəcək?***

- Düzdür, xalq bunu tələb edir. Onu da nəzərə alaq ki, prezident xalqın tələbinin nəzərə alınacağını söyləyib. Amma burada bir məsələ var. Türkiyə Avropa Şurasının üzvüdür. Bu şuranın üzvü olan ölkələrin edam cəzasından vaz keçməsi gərəkir. Sizin qəzetə verdiyim müsahibələrdə bunu demişdim ki, Rusiyada ölüm cəzası var. Amma onun tətbiqi yoxdur. Yəni Rusiya bu cəzanı qaldırmış deyil. İndi Türkiyənin belə addım atıb-atmayacağını demək çox çətindir. Bunu zaman göstərəcək. Bir mütəxəssis olaraq, onu deyə bilərəm ki, Türkiyənin bununla bağlı üzərinə aldığı öhdəliklər var. Yəni edam cəzasından birmənalı şəkildə vaz keçib. Bu cəzanın geri gətirilməsi Türkiyə üçün siyasi gərginliyə səbəb ola bilər. Xüsusilə, Avropa Birliyi ilə olan münasibətlər ciddi şəkildə zədələnər. Türkiyənin bunları göz önünə alıb, yenə də bu qərarı tətbiq edib-etməyəcəyini zaman göstərəcək. Amma məndə olan qənaət odur ki, hələlik edam cəzası məsələsi siyasi açıqlamalardan o tərəfə keçmir.

***- Türkiyə 10 gün öncə aldığı zərbəni qısa müddətdə adlada biləcəkmi?***

- İndi bunu söyləmək çox çətindir. Çünki bunun nəticələrini tam olaraq, hələ dərindən görə bilmirik. Gərginlik çox böyükdür. Amma onu deyə bilərəm ki, türk ordusu bu hadisələrdən ciddi zərbə aldı. Türkiyənin hüquq sistemi, təhsili də ciddi zədələndi. Xüsusilə, imtahan sistemi. Sualların oğurlanması, yaxınlarına ötürülməsi imtahanlara ciddi şübhələr yaratdı. Hələ dağılan binaları, yaralananların vurduğu zərbələri demirəm. Bu arada onu deyim ki, Türkiyə şəhid olanların yaxınlarına, yaralananlara maaş kəsəcək. Bir çox məktəblərin adı ölənlərin ismi ilə anılacaq. Burada türk millətinin fədakarlığını unutmaq olmaz. Radioda bir xəbər eşitdim. Xalq ölkə iqtisadiyyatı zəif düşməsin deyə banklara 8 milyard civarında maliyyə yatırıb. Bunlar Azərbaycanda görünməyən məsələlərdir. Azərbaycanlılara, xüsusilə, "Yeni Müsavat" oxucularına bir az səbirli olmağı tövsiyə edirəm. Çünki bu proses dərindir, içərisində nələrin olduğunu sadə insanlar, bizlər belə bilmirik. Elə şeylər ortaya çıxır ki, insan məəttəl qalır, bunlar necə ola bilər deyə. Kimin ağlına gəlirdi ki, dindən danışan insanlar öz millətini bombalayacaq, onları yaxın məsafədən vuracaq, tankla üstündən keçəcək? Bunlar normal insanın ağlına gəlməyən şeylərdir. Hadisələrin gedişatını səbirlə izləmək lazımdır. Türkiyənin gələcəyinin necə olacağı məsələsi hər kəsi narahat edir. Demokratik proseslərdən vaz keçiləcəkmi? Açığı buna inanmıram. Çünki var olan sistemin qorunması məhz demokratik proseslərlə bağlıdır. Əgər demokratiya olmasaydı, xalq öz haqqını bilib, meydanlara çıxmazdı, hər kəsə itaət edərdi.

***- Prezident idarə-üsuluna keçilməklə bağlı Türkiyədə son aylarda ciddi proseslər gedirdi. Hərbi çevriliş cəhdi bu yöndə olan əngəlləri aradan qaldırdımı?***

- Zənn etmirəm, əksinə göstəriş var ki, Türkiyənin hazırda birliyə ciddi ehtiyacı var. Bu baxımdan iqtidarın yaranmış vəziyyətdən yararlanıb, istəklərini həyata keçirəcəyinə inanmıram.

***- Türkiyə bu proseslərdə dünya tərəfindən təkləndimi?***

- Türkiyə bu proseslərdə Amerika, Avropa və dünyadan dəstək aldı. Amma istənilən şəkildə dəstək aldığını söyləmək çətindir. Azərbaycandan dövlət tərəfindən ciddi dəstək oldu. Amma ictimaiyyət arasında bu birmənalı olmadı. Prosesləri dərindən anlamırlar. Bunu həmişə deyirəm və sərt təpkilər alıram. Buradakı proseslərə çox emosional yanaşırlar. Bunları deyərkən, vətəndaşlarımızın anlayışlarının zəif olmasını nəzərdə tutmuram. Sosial şəbəkələrdə bir qrupun millətə etdiyi zikri bütün kütləyə bağlayırlar. Türkiyə 79 milyonluq böyük xalqdır. Bunun içərisində hər tipli şəxslər olacaq. Türkiyədə tək Fətullah "Gülən camaatı" deyil ki. İnsanları geyim tərzinə görə qiymətləndirmək düzgün deyil. Əsgərlərin döyülməsini görüb, emosional olmaq lazım deyil. Günahsız əsgərin döyülməsi yolverilməzdir və bunları edənlər cəzalandırılmalıdır. Bunu iqtidar və müxalifət liderləri də dedilər. Dövlət Bağçalının bu barədə Məclisdə dediyi fikirlər ən doğru yanaşma idi. Buradakı mitinqlərdə Allahu-Əkbər sözlərinə yer verilməsi Türkiyənin islamlaşması anlamına gəlməməlidir. Çünki ülkücülərin, millətçilərin ən çox işlətdikləri ifadələr budur. Kiçik məsələlər insanlarda başqa fikirlər yaratmamalıdır. Kimdə Ərdoğanı müdafiə etmir. Səhər siyasətin nə olacağını demək mümkün deyil. Bu gün Türkiyənin birlik və bərabərliyə ehtiyacı var. Azərbaycan kimi qardaş ölkənin dəstəyinə Türkiyənin böyük ehtiyacı var.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 160 (6481) 25 iyul 2016

**Türkiyə tarixi günlərini yaşayır. Çox önəmli siyasi mərhələdən keçir. Sonunun necə olacağı hələ də tam aydın deyil. Ancaq 15 iyul gecəsində Türkiyədə baş verənlərlə bağlı bir çox məqamlar artıq aydınlaşmağa başlayıb.**
**Belə ki, həmin "qaranlıq gecə"də törədilən hadisənin "hərbi çevrilişə cəhd, yoxsa əvvəlcədən yaxşı ssenariləşdirilmiş oyun" olmasıyla bağlı suallar artıq öz cavabını tapmaqdadır.**

# Türkiyədə növbəti çevriliş cəhdi ola bilər: təhlükə realdır

## Rəsmi Ankara ABŞ-la gərginləşməkdə olan münasibətlərin fonunda preventiv addımlar atır



Böyük əksəriyyətin fikrincə, bu, hərbi çevrilişə cəhd idi. Çünki heç bir dövlət lideri öz rəqibini sıradan çıxartmaq məqsədilə də olsa, özünə qarşı hərbi qiyamın imitasiyasına cəsarət etməz.

Bu, olduqca təhlükəli və riskli "oyun" olardı. Hər halda, hər hansı generalın belə "oyun"ların taleyüklü məqamlarında necə davranacağını əvvəlcədən əminliklə proqnozlaşdırmaq mümkün deyil. Hərbi qiyamın uğursuzluğa düçar olmasında önəm daşıyan bəzi faktorlar da bunu təsdiqləyir.

Bununla belə, hərbi çevrilişə cəhddən Ərdoğan hakimiyyətinin əvvəlcədən, sadəcə, xəbərdar olması ehtimalı kifayət qədər yüksəkdir və bu, bəzi məqamlarda açıq-aşkar hiss olunurdu. Ona görə də, hərbi çevrilişə cəhd və onun qarşısının alınma prosesi ümumi ssenariləşdirilmiş oyun təsiri bağışlayırdı.

Əslində, maraqlı yanaşmadır. Çünki Türkiyə liderinin və baş nazirinin hərbi çevriliş cəhdinin ilk saatlarında özlərini tam arxayın aparmaları, cəsarətli görüntü vermələri onların bu təhlükəyə qarşı hazırlıqlı olduqlarını göstərirdi.

Düzdür, AKP hakimiyyətinin siyasi elitasına daxil olan rəsmilər hərbi çevriliş cəhdi ilə bağlı məlumatları tanklar küçəyə çıxarıldıqdan sonra müxtəlif şəxslərdən aldıqlarını vurğulayırlar. Ancaq bəzi iddialara görə, MİT rəhbəri Hakan Fidan hadisənin törədildiyi gün yerli vaxtla saat 16.00-da Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisini hərbi çevrilişə hazırlığın müşahidə edilməsi barədə şəxsən məlumatlandırıb.

Onların arasındakı müzakirələrdən sonra Baş Qərargah rəisi hərbi qiyamın önlənməsi barədə əmr imzalayıb. Sadəcə, həmin əmr icra edilmək üçün məhz hərbi qiyamın təşkilatçılarına göndərilib.

Daha bir önəmli məqam hərbi çevriliş cəhdindən günlər öncə Türkiyə Silahlı Qüvvələrindən xaric edilməsi və haqqında cinayət işi başladılması nəzərdə tutulan 400-ə yaxın yüksək rütbəli hərbçinin siyahısı hazırlanıb. Və Baş Qərargah rəisinin imzasıyla icraya yönəldilib. Yenə də bu siyahı qiyamın təşkilatçılarının əlinə keçib.

Nəticədə hərbi qiyamın təşkilatçıları seytnot vəziyyətinə düşüblər. Tez-tələsik çevriliş planının reallaşdırılmasına başlayıblar. Hərbi çevrilişin uğursuz alınmasının əsas səbəblərini də məhz bu məqamda axtarmaq lazımdır.

Məsələ ondadır ki, hərbi çevriliş planında yer alan bəzi generallar tərəddüdə qapılıblar. Və həmin generalların bir qismi çevriliş planının reallaşdırılması prosesinə seyrçi qalmağı üstün tutublar. Sonradan isə onların əksəriyyəti Ərdoğan hakimiyyətini dəstəklədiklərini bəyanlayıblar.

Nəticədə hərbi çevriliş cəhdinin təşkilatçıları, onların mövqeyi baxımından, daxili xəyanətə uğramış olublar. Hərbi çevriliş cəhdində iştirakdan son anda imtina edib, siyasi hakimiyyətin yanında yer alan generalların əksəriyyətinin hazırda həbsdə olması da bunu təsdiqləyir.

İşin içində bir də xarici faktorun olması hərbi çevriliş cəhdinə daha təhlükəli görüntülər verir. Belə ki, AKP hökuməti hərbi çevriliş cəhdində Gülən camaatını məsul tutsa da, bu icmanın ABŞ kəşfiyyatı tərəfindən idarə olunduğuna da eyham vurur.

Rəsmi Ankara ABŞ siyasi dairələrinin hərbi qiyam saatlarında tutduğu mövqedən də ciddi şəkildə narahardır. Çünki tankların küçələrə çıxarıldığı ilk saatlarda Türkiyənin strateji müttəfiqi olan ABŞ-ın dövlət katibi Con Kerrinin adından yayılan bəyanatda qarşıduran tərəflərə zorakılıqdan yayınmaq məsləhət görülürdü. Halbuki həmin tərəflərdən biri xalqın seçdiyi qanuni hakimiyyət, digəri isə siyasi iqtidarı silah gücünə devirmək istəyən hərbçilər idi.

Üstəlik, məhz həmin ərəfədə rəsmi Ankara ilə yenicə barışmaqda olan Rusiyanın xarici işlər naziri Sergey Lavrov Türkiyənin xalq tərəfindən seçilmiş hakimiyyətini dəstəklədiklərini bəyanlamışdı. Bu isə ABŞ-ın rəsmi mövqeyi ilə kəskin ziddiyyət təşkil edirdi. Çünki ABŞ yalnız hərbi çevriliş cəhdi uğursuzluqla nəticələndikdən sonra Türkiyənin qanuni hakimiyyətini dəstəkləmişdi.

Təbii ki, bütün bunlar rəsmi Ankaranı narahat edir. Və AKP hökumətinin ittiham oxlarını birbaşa Ağ Evə yönəldir. Rəsmi açıqlamaları nəzərə alsaq, Ankarada hesab edirlər ki, əgər bu işdə ABŞ-ın bağmağı varsa və Pensilvaniyada qərar tutan Fətullah Gülən Türkiyəyə verilməzsə, deməli, çevrilişə növbəti cəhd qətiyyən istisna deyil.

Əslində, rəsmi Ankaranın bu narahatlığı qətiyyən əsassız görünmür. Çünki analoji hadisələr Misirdə də baş vermişdi. Belə ki, Misirdə qanuni hakimiyyətin devrilməsinə yönəlik ilk cəhd uğursuz olsa da, ikinci cəhddən sonra bu ölkənin ordusu hərbi çevrilişə nail ola bilmişdi. ABŞ büdcəsindən maliyyələşən Misir ordusunun ölkədə yaratdığı hərbi rejimin nəticələri isə göz qabağıdadır.

Bütün bunlar rəsmi Ankaranı ABŞ qarşısında israrçı mövqe tutmağa yönəldir. Rəsmi Ankara bir tərəfdən ABŞ-dan israrla F.Gülənin ekstradisiyasını tələb edir. Və tələb yerinə yetirilməyəcəyi təqdirdə, ABŞ-Türkiyə münasibətlərinə yenidən baxılacağını vurğulayır.

Digər tərəfdən isə AKP hökuməti Türkiyədə fövqəladə vəziyyət elan etməklə gözlənilən ikinci çevriliş cəhdi ehtimalına qarşı preventiv addımlar atır. Belə ki, Türkiyədə elan edilən fövqəladə vəziyyətin ölkənin sıravi vətəndaşlarına dəmək olar, elə bir ciddi aidiyyəti yoxdur. Bu, Türkiyədə dövlətin özünə qarşı elan etdiyi fövqəladə vəziyyətdir.

Belə anlaşılır ki, Türkiyə xaosa düçar olaraq, Suriya və ya İraqa çevrilmək ehtimalından hələlik xilas ola bilsə də, təhlükə hələ tam sovuşmayıb. Ərdoğan hakimiyyətindən narazı olan xarici qüvvələr bu prosesin növbəti mərhələsini başladaraq, yarımçıq qalan niyyətlərini sona çatdırmağa çalışa bilərlər. ABŞ-la kəskin ziddiyyətlərin olduğu bir dönəmdə Türkiyə dövlətinin bu təhlükəli ssenarilərdən necə yayına biləcəyi yəqin ki, çox yaxın gələcəkdə aydınlaşmağa başlayacaq.

❑ **Elçin XALİDBƏYLİ**

---

**Türkiyə televiziyalarında iki gündür təkrar-təkrar efirə verilən bu təbliğat çarxı Azərbaycanda bunca müzakirəyə səbəb olmaz, sosial şəbəkələrdə bu qədər dartışılmaz, insanları incitməzdi, əgər ortada erməni söhbəti olmasaydı. Kimlər, nə məqsədlə yenə də ermənini ortaya atıb, demək çətindir. "Nə mutlu Türkəm, Lazam, Gürcüyəm... deyənə!" - deyirlər. Olsun, heç bir etirazımız yox! Ancaq "nə mutlu erməniyim deyənə?!" Bax, bu, olmadı.**

**Elşad PAŞASOY**
epashasoy@yahoo.com



# Erməni Türkiyəyə görə mutludurmu?

Türkiyədə hər kəs bilir ki, erməni mövzusu Azərbaycan insanı üçün çox həssas məsələdir. Ermənidən nə çəkdiyimizi ən azı Türkiyə TV-lərində çalışan həmkarlarımız çox yaxşı bilir. Elə isə bu, nə?!

TRT-dən sonra digər TV-lər də "nə mutlu erməniyəm" deyib də bizi üzdü. Özü də xarabalıqları qalmış Ağdamın işğal günündə!!! Qoy heç "Nə mutlu azeriyəm" deməsinlər, istəmirik də! Çünki biz "azəri" deyilik, Azərbaycan türküyük! Bizləri "unudub" da erməni olmağın mutluluğunu yaşayanlar tək bizə yox, bütövlükdə Türklüyə həqarət etdi.

Videoçarxda deyilir ki, "biz qanımızı, canımızı fəda edərək qurtuluş savaşımızı əl-ələ hamımız birlikdə qazandıq". Erməni nə zaman əl-ələ verib Türkiyə Cümhuriyyətinin istiqlalının qazanılmasında iştirak edib?! Osmanlı Türkiyəsinə xəyanət edən, onun kürəyinə xəncər saplayan Androniki, onun dəstəsini unutmamışıq axı. Əgər ermənilər türklərlə əl-ələ vermişdisə, onda niyə Osmanlı erməni xəyanətindən cana doyduğu üçün onları köçürməyə qərar vermişdi? ASALA-nın vəhşilikləri nə tez unuduldu? Təkcə 1970-80-ci illərdə bu terror təşkilatı Avropada 42 türk diplomatı qətlə yetirilib. PKK-ya dəstək verən erməniləri də xatırlayaq...

Deyilir ki, bu, 15 iyul hərbi çevriliş cəhdindən sonra 80 milyonluq Türkiyədəki toplumun birləşdirilməsi mesajıdır. Axı, erməni nə zaman gəlib çevriliş etmək istəyənlərin qarşısında çıxdı, gəlib də öldü, yaralandı ki, onlar da siyahıda yer aldı?

Darbə gecəsi bütün Azərbaycanın ürəyi Türkiyə ilə bərabər döyünürdü, üzüntümüzün həddi yox idi, səhəri dirigözlü açdıq. Türkiyə hakimiyyətinin təmsilçiləri, Bakıdakı böyükelçi Azərbaycanın mövqeyindən razılığını dəfələrlə bəyan etdi. Ermənilər isə həmin gecə Türkiyənin Suriyaya dönəcəyini, qan göllərinin yaranacağını həsrətlə gözləyirdilər. Kimsə deməsin ki, söhbət sülhpərvər ermənilərdən, sadə insanlardan gedir və TV-lər də onları nəzərdə tutub. Çocuğu doğulanda qulağına "Türk sənin düşmənindir" deyən ermənilər haqqında da az eşitmədik axı bu illərdə...

Şübhə yox ki, erməni məsələsi daha çox azərbaycanlıların incidilməsinə yönəlib. Çevriliş cəhdinə ən həssas münasibət Azərbaycandan verildi, birmənalı qanuni hakimiyyət dəstəkləndi. Daha Ermənistan rəhbərliyi kimi, "hadisələri izləyirik" deyib nə baş verəcəyini gözləmədi. Türkiyə hökuməti də prezident Ərdoğan, baş nazir Yıldırım başda olmaqla ölkəmizi dünyaya nümunə gətirdi, dəfələrlə təşəkkür etdilər. Və bunun ardınca Azərbaycanda üzüntü ilə qarşılanan "erməni mutluluğu" dövriyyəyə buraxılır. Təsadüf deyil təbii ki...

Bu gün dünyada Türkiyə-Azərbaycan müttəfiqliyinin, qardaşlığının bənzəri olan ikinci nümunə yoxdur. Türk düşmənlərinin təbii ki, gözü götürmür bunu. Ona görə də daim əlaqələrimizi korlamağa çalışırlar. Necə ki, 2009-cu ildə Bursada Azərbaycan bayrağına həqarət edilmişdi. Sonrakı dönəmlərdə də "Bir millət iki dövlət"in arasını vurmaq üçün çox cəhdlər olub. Hadisələri xatırlasaq, kimlikləri məlum olar.

3 il yarım əvvəl, ferval ayında Ankaranın Qızıl Ay meydanında bir türkçü dərnək Xocalı soyqırımı ilə bağlı stendlər qurmuşdu. O zaman təşkilatçılara hücum edən, stendləri qırıb-dağıdanlar "hamımız erməniyik, hamımız kürdük, hamımız Qrant Dinkik" şüarları səsləndirmişdilər.

Elə həmin il Taksim Gəzi Parkına yığışan bir qrup parkın əslində erməni məzarlığı (?-E.P.) olduğunu və bura Hrant Dinkin adını verdiklərini iddia edərək hökumət əleyhinə aksiya keçirmişdilər, yenə də " Hepimiz ermeniyiz"-deyərək.

Gah ortaya Sürix protokollarını atdılar, gah İqdırın Tuzluca qəsəbəsinin giriş-çıxışına ermənicə "Xoş gəldiniz", "Yaxşı yol" yazdılar, gah da üzü Ermənistana sarı "dostluq heykəli" qoydular. Nəticə "0"-dır, çünki erməni məkri böyük güclərin qurduğu ssenarilərin müsbət sonluqla bitməsinə imkan vermir. Ancaq iki qardaşı beləcə ürəkbulandıran məsələlərlə bir-birindən ayırmaq istəyirlər.

Hər halda inanırıq ki, qardaş ölkədə bu yanlışın düzəldilməsi üçün gərəkən yapılacaq, türk düşmənləri yenə də zəbun olacaq. Anlamaq gərəkdir ki, ermənini "süddən çıxmış ağ qaşıq" kimi göstərənlər həm də Türkiyəyə böyük pislik edir. Nə qədər ki, dünya erməniləri Türkiyəyə qarşı saxta "soyqırım" davası aparır, Ermənistan konstitusiyasından Türkiyə ərazisinə - Ağrı dağına iddia maddəsi çıxarılmayıb, Qarabağ işğaldan azad olunmayıb, Xocalı soyqırımını törədənlər beynəlxalq məhkəmə qarşısında dayanmayıb, "nə mutlu erməni deyənə" demək erməni fitnə-fəsadının qurbanı olmuş yüz minlərin - Azərbaycan torpaqları uğrunda həlak olan Türk əsgərlərinin, Çanaqqalada, Qarabağda şəhid olan azərbaycanlıların ruhunu incitməkdir! Erməni mutlu olur, onların ruhunu incidəndə. Amma erməni toplumu heç zaman Türkiyənin böyüklüyünə, inkişafına, qalib olmasına görə özünü xoşbəxt saymayıb. Bu illər ərzində birçə dəfə 5-10 min erməni Türkiyədə Ermənistana qarşı etiraza qalxıb saxta "soyqırımı", Qarabağın işğalını lənətləməyib. Çünki mutludurlar...



# "Jenmin Jibao"dan eksklüziv yazı

Samir SARI

**Dünən yubileyini qeyd etdiyimiz Rauf Arifoğlu tələbkar müdirdir. Bunun gerçək miqyasını ən çox onunla birbaşa işləyənlər bilər. İndi sizə bir nəzəri nümunə təqdim edəcəm, fantaziyadır, amma həqiqətə söykənir.**

Məsələn, ola bilər ki, bir gün Rauf bəyin dostlarından biri ona zəng edər və deyər: "Bəy, deyirlər, Pekində çıxan "Jenmin Jibao" qəzetində Azərbaycanla bağlı maraqlı bir yazı çıxıb".

Sizcə, Rauf Arifoğlu nə edəcək? Xəbəri verənə "sağ ol" deyəndən iki saniyə əvvəl (sonra yox ha, əvvəl) Musavat.com-un əməkdaşlarına zəng vuracaq: "Çində çıxan "Jenmin Jibao" qəzetində ölkəmiz haqda əla bir yazı çıxıb, onu dərhal sayta qoymaq lazım. Təcili".

Saytın əməkdaşları yazını axtarmaqdaykən Rauf Arifoğludan daha bir zəng gələcək: "Çin qəzeti necə oldu? Tapdınızmı". Cavabın nə olmasından asılı olmayaraq əlavə edəcək: "Bir az cəld olun, hamı verdi, biz qaldıq".

Az sonra məlum olacaq ki, həmin qəzet Çin dilində, özü də ieroqliflərlə çıxır. Yəni ağac, çərçivə, kub şəkilləri kimi bir şey.

Əməkdaşlar deyəcəklər, bəy, Çin ieroqliflərini oxuya bilmirik. Rauf Arifoğlunun ilk reaksiyası belə olacaq: "Ay qardaş, bu ieroqlifləri öyrənin də. Bu sizin işinizdir axı. O qədər işçi var saytda, amma heç biriniz Çin dilini bilmirsiz".

Söhbət burda bitəcəkmi? Xeyr. Baş redaktor götürüb Votsapda yazacaq: "Çin səfirliyindən nömrə bilən varmı?" Elşad Paşasoy dəftərçəsini vərəqləyib uyğun nömrəni tapacaq votsapda yazacaq: "Buyurun, bəy". Rauf Arifoğlu həmin nömrəni əməkdaşlardan birinə verib təlimatlandıracaq, "səfirlikdən bir yazının tərcüməsinə kömək istə" deyəcək. Çin səfirliyi ilə danışmaq mümkün olsa, ayıq-sayıq çinli əməkdaş gözlərini qıyacaq və burada Çinin dövlət mənafelərinə zidd nəsə olduğunu düşünərək deyəcək: "Bu cür məsələlərlə bağlı mediaya açıqlama vermirik".

Ancaq bu hələ son deyil. Rauf Arifoğlu Paşasoya XİN-ə zəng edib, Hikmət Hacıyevdən çin dili üzrə mütəxəssis tapmağı xahiş etməyi tapşıracaq. XİN-də hamı ingilisdilli olduğu üçün çindilli tapılmayacaq.

Məlum yazını mütləq Azərbaycan dilinə çevirtditməyi qarşısına məqsəd qoyan baş redaktor hər ehtimala qarşı Mahir Məmmədliyə zəng edəcək, soruşacaq ki, o, Çin dilini bilirmi. Mahir yuxulu-yuxulu cavab verəcək: "Bəy, vallah, içəndə cin dilini də bilirəm, amma çincəni bilmirəm. Vacib lazımdırsa, öyrənərəm".

Ancaq pəs etmək söhbəti yoxdur: R.Arifoğlu tanışlardan vaxtilə Çində səfir işləmiş Tamerlan Qarayevin telefon nömrəsini, Feysbuk, İnstaqram, Tvitter ünvanlarını tapacaq, onların dördündən də cənab səfirlə əlaqə yaradıb Çin dilində olan mətnlə bağlı kömək etməsini xahiş edəcək.

Məlum olacaq ki, Çində işlədiyi vaxt Tamerlan Qarayevin yanında işləyənlər indi başqa yerdə çalışırlar və cənab səfir özü Çin dilində bilmir.

Yaxşı bəs necə olsun? Bu yazı nəyin bahasına olursa, olsun, Musavat.com-da getməlidir axı. Rauf Arifoğlu ləngimədən köməyə redaksiyanın fövqəladə hallar komissarını - Əlisuvarı çağıracaq və yeni bir tapşırıqla iş başına göndərəcək. Əlisuvar direktor Ələsgərdən pul-para götürərək, 8-ci kilometr bazarı tərəfə gedəcək, orada arayıb-axtaracaq, axırda "üs manat, bes manat" deyə-deyə əllərində britva, güzgü, batareya, qayçı və sair xırdavat satan çinlilərdən 3-4 nəfər taparaq və hərəsinə dörd manat verərək redaksiyaya gətirəcək.

Redaksiyaya gələndə məlum olacaq ki, çinlilərin ikisi əslində uyğurdur və Çin dilində düz-əməlli bilmirlər. Ancaq onlardan ən azı biri əsl çinli çıxacaq. Redaksiyada onu kompüterin monitoru qarşısında oturdacaq, "Jenmin Jibao" qəzetinin saytını açıb, Azərbaycan haqda gedən yazını tapacaqlar. Daha sonra o yazını Transleyt proqramıyla və bizim dildə əzik-pozuq danışan çinlinin köməyi ilə ana dilimizə çevirəcəklər.

Bu prosesin getdiyi vaxtda Rauf Arifoğlu yeddi dəfə saytın otağına zəng edəcək və tərcümə prosesinin necə getdiyi ilə maraqlanacaq, iki dəfə Toğrula, iki dəfə də Turana votsapda "alo, ay oğuuul, bir az tez olun dəə, geri qalırıq axı" deyəcək və ən azı bir dəfə hadisə yerinə gələcək.

Nəhayət, "Jenmin Jibao"da gedən yazı hazır hala gələcək və məlum olacaq o yazı belədir: "Azərbaycanda keçirilən bədii gimnastika yarışında çinli atletlər mükafat qazanıblar".

Rauf Arifoğlu bir az məyus olacaq: "Hmm, elə bir xəbər deyilmiş, bu qədər əziyyət çəkdik. Amma eybi yox, eksklüziv xəbərdir. Yalnız bizdədir. Başlığın qarşısına EKSKLÜZİV VƏ FOTOLAR yazın, verin". Yazı sayta verilən anda baş redaktordan zəng gələcək: "Videosu varsa, onu da qoyun". Sonra daha bir zəng: "Paylaşmağı da unutmayın".

Çinli gimnastların Bakıda mükafat alması barədə eksklüziv xəbər sayta qoyulandan bir müddət sonra ola bilər, Rauf Arifoğlunun çoxsaylı dostlarından daha biri zəng etsin: "Bəy, İordaniya saytında filan xəbər var".

Rauf Arifoğlu dərhal əvvəlcə saytın əməkdaşlarına "ərəbcə yazıb-oxuyanınız yoxdurmu" yazacaq və paralel olaraq, hazırda Ankarada olan Kənan Rövşənoğluya yazacaq: "Onlaynsansa, hay ver. Sənlik iş var". Daha sonra sayta mesaj yollayacaq: "Kənandan yazı gələcək, onu dərhal sayta qoyun".

Ertəsi gün Rauf Arifoğlu sayt otağına zəng edib soruşacaq: "Çin ieroqliflərini öyrənəniz varmı?"

Bəli, bu dediklərimiz məhz belə olur. Bir az şişirtmə varsa da, bir misqal yalan yoxdur.

Ancaq bir məsələ də var ki, işə bu cür yanaşmayanda birinci ola bilmirsən...

# Bahalaşma təhlükəsi - inflyasiya da ikirəqəmli olacaq...

## Ekspertlər qiymət artımının qarşısını almağın mümkünsüzlüyünü bildirirlər

**Ölkədə elektrik enerjisinin qiyməti artırılandan sonra digər sahələrdə də bahalaşmanın olacağı ehtimal edilir. Ekspertlər daha əvvəl suyun bahalaşdığına diqqət çəkərək, kommunal sahədə bahalaşmanın davam edəcəyini proqnozlaşdırırlar. Qiymət artımı üçün ciddi əsas olmadığını bildirməklə yanaşı, ekspertlər əlavə edirlər ki, hökumət digər sahələrdə bahalaşma üçün özü əsas yaradıb. Bu səbəbdən bahalaşmanın qarşısını alacağı ağlabatan deyil.**

Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində qiymətləri hökumətin özü qaldırır: "Tarif Şurasının qərarı ilə suyun, elektrik enerjisinin qiymətlərinin qalxması, təbii ki, bir çox hallarda digər sahələrdə qiymət artımına təkan verir. Bununla yanaşı, bir sıra kommunal xərclərdə də artımın olması ehtimalı var. Həmçinin manatın məzənnəsi getdikcə aşağı düşür. Rəsmi məzənnə 15-20 gündür ki, xeyli dərəcədə azalıb. Ümumi minimum hədləri götürsək, rəsmi məzənnə artıq 1,57-yə keçib. Elə tək dolların məzənnəsinin qalxmasına görə qiymətlərdə bahalaşma ola bilər. Bahalaşma həm yerli məhsullara aiddir, həm də gətirilmiş, ölkəyə idxal olunmuş məhsullara aiddir. Gətirilən məhsullara birbaşa təsir göstərir. Çünki məzənnə qalxdıqca qiymət qalxır. Yerli məhsullara da istehsalçılara təsir göstərməsi səbəbindən bahalaşma üçün zəmin yaradır. Çünki onların əlavə xərcləri artır. Həm elektrik enerjisinin, həm suyun qiymətinin qalxması, digər kommunal xərclərinin artması ehtimalı, bütün bunlar, digər məhsulların qiymətinin artması həmin istehsalçıları da qiymət artımına sövq edir. Yəni burada hökumət görə biləcəyi işi artıq mənfi mənada görüb. Kommunal xərcləri qaldırmaqla məzənnənin artmasına imkan yaratmaqla artıq qiymət artımına gedib. Görə biləcəyi işi isə biz illərdir deyirik. Hətta bu vəziyyət yaranmamışdan öncə də deyirdik ki, ölkədə ciddi rəqabətli mühit olmalıdır ki, ciddi rəqabətli mühitə görə qiymətlərin artırılması imkan yaranmasın. Rəqabətli mühit olsa, gömrükdə və vergi sistemində normal idarəçilik tətbiq olunsa, o zaman qiymətlərin artımında müəyyən dərəcədə zəifləməni görə bilərik. Hətta bəzi sahələrdə ucuzlaşma da ola bilər. Sadəcə, bunun üçün normal idarəetmə sistemi yaranmalıdır. Bunun üçün rəqabətli mühit yaranmalıdr. Bunu hökumət illərdir etmirsə, qiymət artımında birbaşa hökumətin rolu var və bu rol danılmazdır. Hökumətin atdığı addımların nəticəsi olaraq bahalaşma müşahidə edilir".

Ekspert Qubad İbadoğlu isə qeyd edib ki, yeni bahalaşma dalğası gözlənilir: "Milli valyutanın devalvasiyası şəraitində yeyinti məhsullarının idxalının artımı, eləcə də suyun, elektrik enerjisinin tariflərinin bahalaşması və onun digər bazarlara təsirləri inflyasiya artırıcı amilləri fəallaşdıracaq".



Ekspertin sözlərinə görə, Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası üzrə açıqlanan hesabatdan məlum olur ki, bu ilin 6 ayında ötən ilin eyni dövrü ilə müqayisədə idxal olunan malların çeşidlərinin sayı 1040 ədəd artaraq 6520-ə çatıb. Keçən ilin müvafiq dövrünə nisbətən idxal əməliyyatlarının məbləği 13,98 faiz azaldığı halda malların çeşidlərinin sayının 20 faizədək artımı ilk növbədə ölkə iqtisadiyyatının xarici faktorlardan asılılığını gücləndirir: "Bu dinamika idxalı əvəz edən yerli istehsalın formalaşması ilə əlaqədar siyası bəyanatları və sənaye məhsulunun artımı ilə bağlı açıqlanan son statistik məlumatları təkzib edir. Belə ki, həqiqətən də əgər deyildiyi kimi, qeyri-neft istehsalında inkişaf varsa, onda əksinə idxalı əvəz edən yerli istehsal hesabına ölkəyə xaricdən gətirilən məhsulların çeşidlərinin sayında azalma müşahidə olunmalı idi. Lakin bu ilin birinci yarısına idxal əməliyyatlarının təhlili göstərir ki, bu dövrdə xüsusilə də alıcılıq qabiliyyətinin aşağı düşməsinə baxmayaraq, ümumi yekununda 14,8 faiz xüsusi çəkiyə malik olan yeyinti məhsullarının idxalında 12 faiz artım olub. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, ötən illə müqayisədə idxalda yeyinti məhsullarının payı 3,6 faiz bəndi yüksəlib. Bununla yanaşı, 2016-cı ilin 1-ci yarısında idxalda 23,3 faiz xüsusi çəkiyə malik olan maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri 7,5 faiz, idxalda 12,5 faiz xüsusi çəkiyə malik olan nəqliyyat vasitələri və onların hissələri isə 2 dəfəyədək azalıb. Beləliklə də cari ilin 6 ayının yekunlarına görə, ölkəyə gətirilən yeyinti məhsullarının xüsusi çəkisi, məbləği və çeşidləri artdığı halda milli iqtisadiyyatın modenləşdirilməsi üçün vacib olan nəqliyyat vasitələri, maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələrinin idxalı azalıb".

Ekspert çıxan nəticələrə də diqqət çəkib: "Birincisi, milli valyutanın devalvasiyası şəraitində yeyinti məhsullarının idxalının artımı, eləcə də suyun, elektrik enerjisinin tariflərinin bahalaşması və onun digər bazarlara qiymət artırıcı təsirləri inflyasiyanın artımını şərtləndirəcək və belə olan halda cari ilin ikinci yarısında da ölkə iqtisadiyyatında ikirəqəmli inflyasiya hökmranlıq edəcək. İkincisi, yeni texnika və texnologiyaların, müasir maşın və mexanizmlərinin idxalının aşağı düşməsi milli iqtisadiyyatın modernləşdirilməsi prosesini ləngitməklə ölkənin rəqabət qabliyyətinin aşağı düşməsinə və bununla da qeyri-neft ixracatının yalnız xammal və aqrar məhsulların bazasında formalaşmasına gətirib çıxaracaq. Bu sahədə potensialın azlığı milli iqtisadiyyatın gələcəyi üçün ciddi problemlər yaradacaq, belə olan halda da ölkə iqtisadiyyatı və manatı daha mürəkkəb və böyük çətinliklərlə üzləşəcək. Təəssüf ki, idxalda müşahidə olunan mövcud dəyişiliklər nə iqtisadiyyata məsul olan hakimiyyət orqanlarını, nə də ki, bu sahədə qərar qəbul edən səlahiyyətli şəxsləri hələ də qayğılandırmır".

❑ RÖYA

YENİ MÜSAVAT
N 160 (6481) 25 iyul 2016

**"Baxış bucağı"**

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa elə müsahiblərdəndir ki, ondan hər söhbətdə rəngarəng mövzulara kifayət qədər maraqlı cavablar almaq mümkündür. Budəfəki müsahibəmizdə konstitusiya dəyişikliklərindən tutmuş, Türkiyədəki olaylara, həmçinin çimərlik qadağaları, yol qəzaları, devalvasiya daxil, bir çox məsələlərdən danışdıq, suallarımıza maraqlı cavablar aldıq.**

# "Dənizə çıxışımızı hasarlayıb, bir dənə pişik yolu qoyublar"

## Fazil Mustafa: "O zaman kimin iki evi varsa, birini evi olmayana verməlidir"

***- Fazil bəy, Azərbaycanda Konstitusiya dəyişiklikləri ilə bağlı referendum ideyası, sizcə, hansı zərurətdən irəli gəldi?***

- Fikrimcə, Konstitusiya dəyişiklikləri zərurətdən deyil, qonşu ölkələrdə baş verən hadisələrdən qaynaqlanan ehtiyatlılıqdan irəli gəlir. Xüsusilə Türkiyədə baş verən son hərbi çevriliş cəhdi onu göstərdi ki, nə qədər irəli demokratiyaya sahib olursan ol, beynəlxalq güclərin marağına uyğun siyasət yeritməyəndə boş səhrada fırtına yarada bilirlər. Türkiyə demokratiyanın inkişaf səviyyəsinə görə bizdən xeyli irəlidədir, bununla belə yenə də hərbi çevriliş riski yaşana bilirsə, o zaman daha gənc və cəmiyyətin siyasətdə fəal aktyora çevrilmədiyi Azərbaycanda bu güclər daha ciddi problemlər yarada bilərlər. Ona görə də icra hakimiyyətinin möhkəmləndirilməsi, qarışıq situasiyada idarəçilik boşluğuna yol verilməməsi üçün bu cür addım gözlənilirdi və referendum yolu ilə bunun həlli müxanizmi düşünüldü. Açığı, ölkə prezidenti tərəfindən təqdim olunan bu sənəddə bəlkə demokratiya prinsiplərindən müzakirə oluna biləcək müəyyən məqamlar tapıla bilər, ancaq əsas hədəf ölkənin təhlükəsizliyi olduğu üçün qiymətləndirmə də məhz təhlükəsizlik meyarı ilə aparılmalıdır.

***- Bildiyimizə görə, siz ümumilikdə dəyişikliklərlə bağlı əksər təklifləri təqdir etsəniz də, parlamentə aid təşəbbüsləri bölüşmürsünüz. Dəyişikliklərdən sonrakı Milli Məclisi necə təsəvvür edirsiniz?***

- Haqlısınız, bu məsələdə mən də ölkənin təhlükəsizliyi və beynəlxalq güclərin planlaşdırdığı xaosun önlənməsi baxımından bu dəyişiklilərin əksər hissəsini yerində hesab edirəm. Ancaq iki müddəa var ki, bunların gələcəkdə ciddi problemləri də özü ilə gətirəcəyini istisna etmirəm. Ona görə də bu iki məsələ üzərində indidən dəqiqləşdirmə zəruridir ki, sabah yaranacaq narahatçılığın qarşısı alına bilsin. Birincisi, sosial ədalət prinsipini əsas götürərək torpaq üzərində mülkiyyət hüququnun məhdudlaşdırılması, ikincisi isə etik qaydaları pozduğuna görə deputat mandatından məhrum edilmə tələbinin qoyulmasıdır. Bilindiyi kimi, sosial ədalət anlayışı olduqca mücərrəddir və istənilən məhdudlaşdırma aktını bu prinsip üzərindən tətbiq etmək rahat bir işdir. Onsuz da bizdə dövlət ehtiyacı üçün mülkiyyətin kompensasiyası ödənilməklə özgəninkiləşdirilə bilməsi mümkündür. Burada isə kompensasiyadan ümumiyyətlə söhbət getmir və bu halda kimsə torpağa əminliklə kapital yatırmağa, güclü infrastruktur qurmağa maraqlı olmayacaq.

**"Devalvasiya ocağında hələ də kül qalıb, bu, o deməkdir ki, yatıb-durub manatın bir də nokauta düşməsini görə bilərik"**

Necə olsa, bir gün kimsə, sosial ədalət adlanan kabusla bunu onun əlindən ala bilər düşüncəsi hər zaman fermeri və ya torpaq sahibini rahatsız edəcək. Mülkiyyətə münasibətdə sosial ədalət meyar olaraq götürülərsə, o zaman kimin iki evi varsa, biri alınıb evi olmayana verilməlidir. Maşın, bağ, obyektlər də eləcə. Bu isə xüsusi mülkiyyətçilikdən imtina demək olardı, yəni yenidən sosializmə dönüş kimi bir vəziyyət. Məncə, burada sosial ədalətin dəqiq açılışı verilməlidir ki, torpaq mükliyyətçisinin hüquqlarının məhdudlaşdırılması durumunda qanunun sui-istidadəsi baş verməsin.

İkinci məsələ isə parlament demokratiyasına ciddi ziyan vura bilər. Prosedurla, gündəlik məsələlərlə bağlı hər hansı mübahisə etik qaydaların pozulması kimi təfsir oluna və deputatın hüququ subyektiv qərarlarla pozula bilər. Məmurun etik qaydaları var və bu dəyişiklik hakimiyyətin ayrıca müstəqil qolu olan parlamentin üzvünü dövlət məmuru kimi idari tabeçiliyə bağlayacaq. Onsuz da indiki qanunvericilikdə etik qaydaların pozulmasına görə deputat üçün intizam məsuliyyəti var və deputatın mandatdan məhrum olunması normasının törədilən cinayət əməlinə görə tətbiqi yetərli sayıla bilər. Etik qaydaların pozulmasına görə deputat mandatından məhrum edilmə, artıq danışmağın riskli olduğu, mübahisənin, gərgin müzakirələrin məhdudlaşacağı bir parlament deməkdir. Ona görə də burada da etik qaydaların pozulmasının dəqiq açılışı olmalıdır ki, sonralar müəyyən anlaşılmazlıqlar ortaya çıxmasın.

***- Referendumdan sonra növbədənkənar parlament və ya prezident seçkiləri keçirilə bilərmi?***

- Güman etmirəm. Üç il öncə prezident seçkiləri keçirilib və 2018-ci ilə də cəmi iki il qalır. Elə bir seçkiyə hazırlıq bir il çəkirsə, çox güman ki, prezident seçkiləri öz vaxtında keçiriləcək. Növbədənkənar parlament seçkilərinin də keçirilməsi üçün ciddi bir situasiya və ya qanunvericilik tələbi yaranmayıb. Əgər bu dəyişikliklərdə Milli Məclisin statusunda və ya qanunverici hakimiyyətin funksional fəaliyyətindəki yeniləşmələr olsaydı, o zaman bəlkə də bu barədə müzakirə açmaq olardı. Burada daha çox ali icra hakimiyyətinin strukturunun təkmilləşdirilməsi və insan haqları ilə bağlı müddəaların dəqiqləşdirilməsi ağırlıq qazandığına görə, indiki məqamda növbədənkənar parlament seçkilərinin yenidən keçirilməsi zərurəti yaranmır.

***- Fazil bəy, ölkədə elektrik enerjisinin qiymətinin qaldırılmasından sonra digər sahələrdə də qiymət artımının qaçılmaz olduğu deyilir. Yeni devalvasiya təhlükəsi də real sayılır. Hökumətin davranışları situasiyaya adekvatdırmı? Siz indiki durumdan çıxış yolunu necə görürsünüz?***

- Qiymətlərin artımı hər zaman baş verə bilər və bu, təkcə iç siyasətlə bağlı məsələ deyil. Dünya bazarında neftin qiymətinin yuxarı-aşağı oynamasının bütün sahələrə neçə təsir etdiyinin hamımız yaşadığımız günlərdə şahidiyik. Devalvasiya ocağında hələ də kül qalıb, bu o deməkdir ki, yatıb - durub manatın bir də nokauta düşməsini görə bilərik. Burada çıxış yolu yoxdur, artıq qalmalı olduğumuz yerdən çoxdan çıxmışıq, indi qarşımızda sadəcə islahatlara giriş yolu var: istehsalın, emalın stimullaşdırılması, bir də inhisarçılığın, verginin əzə bilmədiyi təşəbbüskar iş adamı. Bu yola girəcəyikmi, bunu bilmirəm. Girəriksə, qısa zamanda Azərbaycanlı sahibkarın iqtisadi zəkasına güvəndiyimə görə, işlərin qaydaya düşəcəyini rahatlıqla söyləyə bilərəm.

**"Növbədənkənar parlament və ya prezident seçkiləri üçün ciddi bir situasiya və ya qanunvericilik tələbi yaranmayıb"**



***- Fazil bəy, 15 iyuldakı çevriliş cəhdindən sonra Türkiyənin hansı istiqamətə gedəcəyi ilə bağlı ziddiyyətli yanaşmalar var. Sizin gözləntiləriniz maraqlıdır, qardaş ölkədə demokratik ənənələrin, dünyəviliyin arxa plana keçəcəyi barədə iddiaları bölüşmək olarmı, yoxsa bu, mümkünsüzdür?***

- Çevriliş cəhdinin qarşısının alınmasına görə həqiqətən böyük sevinc hissi keçirdim. Bizlərin Türkiyə ilə bağlı həssaslığımıza bəzən qəribə baxanlar olur. Ancaq bəzən özümüzü bir Türkiyə vətəndaşı qədər Türkiyəyə bağlı hiss edirik, Azərbaycan qədər içimizdə Türkiyəyə də sevgi daşıdığımızı büruzə veririk. Səbəb yalnızca duyğularla, qanla, dillə bağlı deyil, ən başlıcası, gələcəyin reveransı ilə bağlıdır. Yəni enində-sonunda biz Türkiyə ilə eyni şamın işığında dünya turuna çıxacağıq. Bu səbəbdən də orada nə yaşanır, nə qurulur, kim yıxılır, kim durur-bunlar dərhal bizim maraq dairəmizə izinsiz girə bilir. Türkiyəni səthi bilənlər üçün hər dəfə təkrarlanan bir tezis-təhlükə var: bu dinçilər əvvəl-axır Atatürk Türkiyəsinin yerinə bir şəriət dövləti quracaqlar. Halbuki, Türkiyə cəmiyyətinin altyapısında, inanclı bazisin böyük əksəriyyətində modern cumhuriyyətin alternativi təsəvvürə belə gətirilmir. Ona görə də belə bir narahatçılıq əsl həqiqətdə yoxdur və olması da mümkün görünmür. Əslində Türkiyədəki ən ciddi təhlükə siyasətin hüququ yönləndirməsi tendensiyasıdır. Bu, Türkiyənin hüquqi dövlət modelinin formalaşmasını xeyli ləngidə bilər.

**"Enində-sonunda biz Türkiyə ilə eyni şamın işığında dünya turuna çıxacağıq"**

***- Fazil bəy, yay tətilində Azərbaycanda ən çox danışılan mövzulardan biri də turizmin vəziyyətidir. Yenə də dənizin hasarlı, çimərliklərin pullu, xidmətin aşağı, qiymətlərin baha olmasından danışırıq. Nazir Əbülfəz Qarayev isə pulsuz çimərliyin anonsunu verdi. Gürcüstan bu sahədə Azərbaycanı dəfələrlə geridə qoyub. Siz vəziyyətin yaxşılığa doğru dəyişməsi üçün nələri təklif edirsiniz? Nədən, haradan başlamalı?***

- Sonuncu sualdan da başlayaq. Rodenin məşhur "Mütəfəkkir" heykəli var. Deyirlər bunu necə yaratdın, cavab verir ki, çox sadə. Daşı götürdüm, üzərində nə artıq şey var yonub çıxatdım, oldu bir mütəfəkkir heykəli. Yəni turizmə zərərli sayılacaq hər şeyi yonub çıxarmalı, sağlam rəqabət yaratmalı, turisti girişdən-çıxışa qədər adam kimi qarşılayıb yola salmalı, adam kimi xidmət göstərməli, soymamalı, soyundurmamalı, rüşvət tələb etməməli, qiymətləri cibinə mütənasib etməli, turizm obyektlərinin vergi yükünü azaltmalı ki, o da bu yükün böyük hissəsini turistin belinə yükləməsin. Qaldı çimərliyə, pullu da ola bilər, pulsuz da. Pulsuz üçün mütləq bələdiyyə qurumları inkişaf etməlidir ki, insanlara əlçatan xidmət göstərsinlər. Pullu çimərliklərdə də ancaq alacaqlarını bilirlər, verəcəklərini dərhal unudurlar. Maşın saxlama 2 manat, duş 1 manat, "besedka" 10 manat, çay 3 manat. Bircə adamdan dəniz pul istəmir. Hasarlama isə artıq Nuh əyyamının söhbətidir, bu məsələni qanunvericilik yox, ancaq Nuhun tufanı çözə bilər. Ləhiş bağlarındakı evimdən dənizə gedərkən baxıram ki, dənizə çıxışımızı hasarlayıb, bir dənə sadəcə, pişik yolu qoyublar. Anlayırsan ki, bu yolkəsən zehniyyətdə olanlar insanları pişik boyda görürlər. Ümidimiz pişik boyda turistlərə qalıb ki, heç olmazsa bu yollarla dənizə qədər birtəhər gedib çıxa bilərlər.

***- Çimərlik mövsümü başlanandan dənizdə boğulanların sayı artmaqda davam edir. Bir tərəfdən də yol qəzalarında həlak olanların statistikası dəhşət saçır. Cəmiyyət mütəxəssisləri bu vəziyyətlə əlaqədar nə etməlidir? Biz niyə kütləvi şəkildə yollarda ölür, sularda batırıq sualına cavabınız və çıxış yolu olaraq təklifiniz varmı?***

- Hər gün Aralıq dənizində Avropaya axın edən onlarla miqrant boğulur. Bizdə iki aylıq çimərlik mövsümündə boğulanların sayını hər halda o miqrantlarla müqayisə etməyimiz maraqlı olmaz. Yəni onlar həyat axtararkən batırlar, bizlər istirahət edərkən. Demək ki, içkili vəziyyətdə, üzməyi bilmədən, dalğalı şəraitdə dənizə girməmək tələblərinə əməl etmək vacibdir. Burada mütəxəssis nə deyəcək? Xilasedici durub, aradabir motorlu qayığı ilə yanından keçib, ehtiyatlı olmağa çağırır, bundan o tərəfə nə edə bilər? Yol infrastrukturu təkmilləşdiriləndən sonra yol qəzalarının da sayı azalan istiqamətdədir. Əsas olan yol mədəniyyətini bütün sürücülərin anlamasıdır. Bu isə sistemli təbliğatdan keçir. Əslində bizim kütləvi şəkildə öldüyümüz yer onkoloji xəstəxanalardır. Bu xəstəlikdən əziyyət çəkən zənginlərimiz xaricdə, yoxsullarımız isə Bakıda xəstəxanalarda növbələrdə bir-birinin üzərinə dırmaşırlar. Bu qidanın, bu ekologiyanın, bu siqaretin və içkinin və nəhayət, bu tibbi təhsilin fəsadlarının nəticəsində kütləvi şəkildə bu cür xəstəliklərdə yaşayan bir cəmiyyətə çevrilirik.

❑ **Elşad PAŞASOY**



# Beyləqan və Braziliya arasında

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən Beynəlxalq Olimpiya Komitəsi Rusiyanın Rio de Janeyro olimpiadasında iştirakı məsələsinə baxacaqdı, mən bu yazını yazanda hələ vəziyyət aydın deyildi, ancaq nüfuzlu "Deyli Meyl" qəzeti bütün idmançıların kənarda saxlanacağı ehtimalının böyük olmasından yazırdı.**

Əslində doğrudan da Rusiya kimi ölkələrin belə idman yarışlarında iştirak haqqı ləğv edilsə yaxşı olardı, çünki ədalətli idman yarışı anlayışına tamamilə ləkə yaxırlar. Son illərdə onlarla rus idmançısında dopinq aşkar edilib, olimpiadalarda, dünya çempionatlarında aldıqları medallar ləğv olunub. Ancaq bu elə ləkədir ki, onu silmək çətindir. Misal üçün, təsəvvür elə 4 il qabaq olimpiadada sən bir rus idmançı ilə rəqabət aparmısan, o da udub qızıl medalı alıb, sənə isə gümüş düşüb. İndi dopinqə görə onun qızılı ləğv edilib sənə verilsə belə həmin qələbə gününün həyəcanını, himnin oxunmasını-filanı necə geri qaytara bilərsən? Bu baxımdan, dopinq məsələsində ciddi qulaqburmaya ehtiyac var, yoxsa dünya idmanı karikaturaya çevrilib gedəcəkdir. (Onsuz da böyük pullar axandan, korrupsioner dövlət liderləri idmanla piar yapandan bəri dünya idmanı ciddi deqradasiya yaşayır. Elə ən son futbol üzrə Avropa çempionatının "penalti çempionatına" dönməsi, Portuqaliyanın deyəsən cəmi 1 oyun udaraq çempion olması hər şeyi deyir. Hər halda ziyanın yarısından qayıtsınlar).

Rusiyanın idman problemlərinin kökündə isə o var ki, burda idmançıların dopinqlə "gübrələnib" arenalara çıxarılmasının arxasında dövlət özü durub. Putin hakimiyyəti saxtakarlıqla rus idmanının inkişafı görüntüsünü yaratmaq istəyib.

Bənzər problem bizdə də var, misal üçün, "milli" bolqar ştanqistlərimizin olimpiada yolunu dopinqə görə bağladılar. Ancaq biz bundan narahat deyilik. Heç rusların narahatçılığının onda birini də yaşamırıq. Çünki dopinqlə ilişdi-ilişmədi - onsuz adam azərbaycanlı deyil. Biri ilişər, başqasını pulla alıb ölkəmizin adından meydana buraxarıq. Bir ata sözümüzdə deyilən kimi: "Qoy desinlər Qasıməlinin çustu var, Kim nə bilir altı yoxdur, üstü var?".

Bax, hazırda olimpiada lisenziyası alıb gələn ay Braziliyaya yollanacaq "azərbaycanlı" idmançıların siyahısına baxsanız orda 53 nəfərdən bəlkə heç 20-si düzgün azərbaycanlı deyil. Çoxuna son bir-iki ildə Azərbaycan pasportu verib, milliləşdiriblər. Görüntü üçün. Guya Azərbaycanda idman inkişaf eləyir. Bəzi köhnə binalara alukopon və penoplastdan üzlük çəkdikləri kimi, tənəzzülə uğramış idman sahəsinə də xarici idmançılardan dekorasiya vururlar, üzlük çəkirlər.

Mövzumuza uyğun gələn iki oxucu məktubu var, onları oxuyaq. Tərtərdən Sənan Qayıbov yazır ki, bir gün rayonda toyda "Qarabağ şikəstəsi" sifariş edilir. Xanəndə oxuyub qurtaranda sifarişçi etiraz edir, deyir tam oxumadın. Xanəndə Aşıq Sevindik cavabını belə verir: "Qardaş, Qarabağın bizdə olan hissəsini oxuduq. Daha nə istəyirsiniz?". Sənan bəyin ehtimalına görə aşıq Lələ təpəyə görə mahnını hələ bir az da uzadıb.

Beyləqandan Vüqar İbişov yazır: "İmişli-Beyləqan-Ağcabədi yolunu getsəniz və ya elə Beyləqanın daxili yollarını görsəniz paytaxtda olan Formula-1 yarışlarının burdan heç vaxt getməsini istəməzsiniz. Burada olduğunuz üçün özünüzü çox şanslı sanarsınız. Hələ camaata verilən elektrik enerjisi 220 v haqqı alınsa da heç 150 v işıq verilmir. S.İmrəliyev küçəsində vəziyyət daha acınacaqlıdır. İşıq xətləri sovet qurulanda çəkiləndi. Bir transformator illərdi dəyişmədiyindən lazımı kv ötürə bilmir. Heç bir elektrik avadanlığı normal işləmir. Azərsu hər evə smartkartlı sayğaclar qursa da su gün ərzində 1 saat verilir- 12.00-13.00, gərək bir nəfər evdə naryada dursun ki, içməli su ehtiyatı yığsın. Camaatın heç bir şikayətinə də baxılmır. Təşkilatlar bir-birinin üstünə atmaqla problem həllsiz qalır. Səngərli Beyləqan yollarının və calaq-valaq işıq xətlərinin görüntüsünü bura qoymaqda sədəcə utandım, utandım ki bunu kimsə götürəcək və dünyanın hər yerinə yayılacaq ki, Azərbaycanda - Beyləqanda yol nə gündədir, xətlər nə gündədir. Sadəcə utandırıcıdır. 100000-ə yaxın əhalinin yaşadığı bir bölgədə adi yol, işıq problemi həll olunmadı...

# Prezidentlərin kritik avqust görüşləri: döyüşə, yoxsa dönüşə doğru?

**Bu gün Türkiyənin hökumət nümayəndə heyəti Moskvaya səfər edəcək. Xəbər verildiyi kimi, nümayəndə heyətinə baş nazirin müavini Nurəddin Canikli başçılıq edəcək. Baş nazirin müavini ilə yanaşı, Rusiya paytaxtına iqtisadiyyat, energetika və turizm nazirləri də gələcək. İki günlük səfər çərçivəsində iki ölkə nazirləri arasında enerji məsələlərinə dair ayrıca görüş keçiriləcək.**




# Qarabağ üçün böyük fürsət ayı - yeni şans pəncərəsi...

"Müharibə, yoxsa sülh" dilemması Əliyev-Sərkisyan, Ərdoğan-Putin görüşlərində çözülə bilər; Ankara görüş öncəsi nazirlərini Moskvaya göndərir - səbəb; **rusiyalı analitik:** "Proseslər iki ölkə arasında böyük müttəfiqlik müqaviləsinin imzalanmasına aparır"; **türkiyəli siyasətçi:** "NATO-nu Türkiyə parçalayacaq..."

Bu səfər Rusiya-Türkiyə barışığından sonra gerçəkləşəcək ilk və böyük ziyarət olacaq və sözsüz ki, "Su 24" insidentinə görə zədələnmiş ikitərəfli iqtisadi, ticari və energetik əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldıracaq - hansı ki, bu həm Türkiyə, həm də Rusiya üçün olduqca vacibdir.

Türkiyəli nazirlərin səfərindən az sonra isə prezident Rəcəb Tayyib Ərdoğan Rusiyaya yollanacaq. Avqustun ilk on günlüyündə baş tutacaq bu səfər zamanı Ərdoğan böyük fasilədən sonra ilk dəfə rusiyalı həmkarı Vladimir Putinlə bir araya gələcək. Türkiyədəki uğursuz hərbi çevrilişdən sonraya təsadüf edəcək bu ilk xarici səfər, özü də məhz Rusiyaya ediləcək ilk xarici səfər xüsusi diqqətdə olacaq və sözsüz ki, nazirlərin ziyarətinin ardınca ikitərəfli münasibətləri bir qədər də yüksək səviyyəyə qaldıracaq.

Yeri gəlmişkən, Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu bu arada bildirib ki, Rusiya çevrilişə cəhd zamanı Türkiyə demokratiyasına ən çox dəstək verən ölkələrdən biri olub. Bu da Ankaranın münasibətləri daha intensivləşdirməyə hazır olması barədə Kremlə ünvanlı növbəti mühüm reveransı sayıla bilər.

***

Ərdoğan-Putin görüşünün mümkün gündəliyinə gəlincə, Türkiyədəki Beynəlxalq Strateji Tədqiqatlar İnstitutunun prezidenti Mehmet Emin Erend hesab edir ki, görüşdə hərbi çevriliş cəhdi ilə bağlı müzakirə ediləcək mövzuların siyahısı daha geniş olacaq.

"Əvvəla, Ərdoğan FETÖ terror təşkilatı üzvlərinin Rusiya ərazisində olması və onların Türkiyəyə ekstradisiyası məsələsini qaldıracaq. Bundan əlavə, Suriya məsələsində prezidentlər ortaq məxrəcə gəlib birgə hərəkət planı işləməyə çalışacaqlar. İstisna deyil ki, son hadisələr fonunda, o cümlədən Kremlin ideoloqlarından biri, Avrasiya ideyasının müəllifi Aleksandr Duqinin Türkiyə səfərindən sonra Ankara-Moskva münasibətləri inkişaf edəcək ki, bu da müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsinə təkan olacaq" - ekspert qeyd edib.

Onun sözlərinə görə, müzakirəyə çıxarılacaq mühüm məsələlərdən biri də Türkiyənin Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzvlük məsələsi ola bilər. "Bəllidir ki, uğursuz çevriliş cəhdindən sonra ABŞ-ın dövlət katibi Con Kerri Türkiyədə kütləvi həbslərdən narahat olduğunu bildirib və Ankaranı demokratik prinsiplərə əməl etməyə çağırıb. Əks halda, hədələyərək bildirib ki, Türkiyə demokratik prinsipləri pozduğu üçün NATO-dakı üzvlükdən məhrum ola bilər. Türkiyə isə buna cavab olaraq yenidən ŞƏT-ə üzvlük məsələsini qaldırır" - analitik bildirib.

***

Sözsüz ki, Ərdoğan-Putin görüşü Azərbaycan üçün də mühüm əhəmiyyət daşıyır və ölkəmizə təsirsiz ötüşməyəcək. Çünki Türkiyə bizim təbii-strateji müttəfiqimizdirsə, Rusiya bizə strateji tərəfdaş ölkədir. Üstəlik, son zamanlar bu iki ölkənin Qarabağ məsələsində konstruktiv əməkdaşlığa başlayacağı haqda intensiv məlumatlar yayılmaqdadır.

Bu xüsusda avqust təması Qarabağ mövzusu üçün də prinsipial əhəmiyyət kəsb edir. Hər necə olmasa, Ankara-Moskva əməkdaşlığının daha da dərinləşməsi bu konfliktin həlli üçün zəruri olan pozitiv atmosferi və əməkdaşlıq bazasını gücləndirəcək. Ərdoğan-Putin görüşündən az sonra isə avqustda Əliyev-Sərkisyan görüşü planlaşdırılır.

"Ankara və Moskva arasındakı gərginlik Türkiyənin regiona təsirlərinə mənfi təsir göstərirdi". Bu sözləri Axar. az-a açıqlamasında politoloq Rasim Musabəyov deyib. O da Ankara-Moskva barışmasının regiondakı proseslərə, xüsusilə Qarabağ məsələsinə müsbət təsirini real sayır: "İki ölkə arasında münasibətlər yaxşı olduğu halda Rusiya, o cümlədən Türkiyə ilə danışıqlar aparılaraq Qarabağ prosesinə təsir imkanları genişləndirilir. Ona görə də Ankara-Moskva münasibətlərinin yaxşılaşmasını alqışlamaq lazımdır. Ancaq bu, bilavasitə Türkiyənin Qarabağ probleminin həllində vasitəçilik etməsinə gətirib çıxarmayacaq. Azı ona görə ki, Türkiyənin Ermənistanla öz problemləri var, üstəlik, heç diplomatik əlaqələri də yoxdur. Ancaq burada daha vacib və çox önəmli bir məqam - Türkiyənin Rusiya ilə Qarabağ münaqişəsi ilə əlaqədar çox ciddi danışıqlar aparmaq imkanı əldə etməsidir".

***

Rusiyalı politoloq Yevgeni Mixaylov da proseslərin iki ölkə üçün pozitiv planda inkişafını mümkün sayır. 15 iyul hərbi çevriliş cəhdinin motivinə toxunan ekspert deyib: "Öncə ondan danışmaq lazımdır ki, Rusiya-Türkiyə əlaqələrinin bərpası kimə sərf etmirdi? Birmənalı şəkildə - ABŞ-a. Əgər bununla Ərdoğan orduda gülənçilərdən xilas olmağı bacarsa, o zaman baş verənlərin hamısı Ərdoğan üçün ağrılı, lakin zəruri təmizlənmə sayıla bilər".

Politoloqun fikrincə, Ərdoğan artıq Rusiya bazarlarsız Türkiyə iqtisadiyyatının nə demək olduğunu sınaqdan çıxarıb. "Bu peyvənd indi ona uzun müddət üçün bəs edəcək. Müvafiq surətdə Rusiya ilə Türkiyənin yaxınlaşması da davam edəcək ki, bu da yekunda geniş miqyaslı müttəfiqlik müqaviləsinin imzalanmasına gətirə bilər" - analitik sonda əlavə edib.

***

Türkiyədəki solyönlü Vətən Partiyasının sədri Doğu Perinçəkin də bu mövzuda fikirləri maraqlıdır. 15 iyul hadisəsini Amerikanın tipik hərbi çevriliş cəhdinə bənzədən siyasətçinin sözlərinə görə, iyulun 15-i həm də Türkiyə üçün ikinci istiqlal savaşıdır.

"FETÖ-nün uğursuz hərbi çevriliş cəhdi ilə ABŞ-ın Türkiyədəki 60 illik hərbi xunta proyekti rəsmən çökdü. ABŞ-ın torpaqlarımızda Kürdüstan adı altında ikinci İsrail yaratmaq cəhdi ağır zərbəyə məruz qalıb. Artıq heç kim PKK-nı basdırıldığı xəndəklərdən çıxarda bilməz. Əgər bu çevriliş cəhdindən sonra Türkiyə Silahlı Qüvvələrinin etibarına zərər vurulsa, bu, Türkiyə üçün ağır nəticələrə səbəb olacaq" - partiya sədri qeyd edib.

Siyasətçinin əminliyinə görə, əgər çevriliş cəhdi uğurlu olsaydı, Türkiyə xəritəsi yenidən formalaşdırılacaqdı. "Türkiyə artıq mövqelərini dəyişir. NATO-nu Türkiyə parçalayacaq. Biz buradan ayrılıb, Asiyaya doğru gedirik. Bizim birinci ticarət ortağımız Rusiya, ikincisi isə Çindir. Enerjini İraq, İran, Azərbaycan və Rusiyadan alırıq. Biz onsuz da çoxdan asiyalı olmuşuq. Artıq Qərbə bağlanan halqalar qırılır".

***

Sadalanan rəy və fikirlər belə bir ehtimalı gücləndirir ki, avqust ayı təkcə Türkiyə-Rusiya və Türkiyə-Qərb münasibətləri üçün deyil, Qarabağ məsələsi üçün də dönüş anı kimi tarixə düşə bilər. Gələn ay "Müharibə, yoxsa sülh" dilemmasına xeyli dərəcədə aydınlıq gətiriləcəyini gözləməyə dəyər.

❑ **Analitik xidmət**



# Türkiyə-ABŞ münasibətlərində gərginlik Azərbaycana da təsir göstərə bilər

## Elxan Şahinoğlu: “Bakı Ankaranın strateji müttəfiqidir və böyük ehtimalla, onun sözünü yerə salmayacaq”

**15 iyul hərbi çevriliş cəhdindən sonra Türkiyə iqtidarının ABŞ-dan Hizmət Hərəkatının lideri Fətullah Güləni ciddi şəkildə tələb etməsi, Vaşinqtonun isə hələ bu tələbi yerinə yetirməməsi iki dövlət arasında münasibətləri soyuqlaşdırıb. İllərlə müttəfiqlik münasibətlərində olan dövlətlərin münasibətləri pozulmaq təhlükəsi qarşısındadır.**

Azərbaycanın strateji müttəfiqi ilə yaxın tərəfdaşı olan ölkələrin münasibətlərində gərginliyin Azərbaycana hansısa şəkildə təsir edib-etməyəcəyi sualı aktuallaşır. Bu mövzuda “Yeni Müsavat”a danışan politoloq Elxan Şahinoğlu öncə bildirdi ki, hərbi çevriliş cəhdi ilə bağlı Türkiyə hökuməti və hüquq-mühafizə orqanları çox ciddi faktlar ortaya qoyublar ki, bu işin arxasında Fətullah Gülənin “Hizmət” hərəkatı dayanıb. Ona görə də Gülənin təhvil verilməsi tələbini qəti şəkildə qoyublar: “Düzdür, Fətullah Gülən hadisənin sabahı mətbuat konfransı keçirərək and-aman etdi ki, onun bu işdə əli yoxdur. Amma neçə ildir biz bu prosesləri müşahidə edirik və görürük ki, Gülən dövlət içində dövlət yaradıb. 30 ildir gəncləri yığıb öz məktəblərində oxutdular və müxtəlif dövlət orqanlarında işlətməyə başladılar. Görünür, orduya da yetirmələrini yerləşdiriblər. Çünki çevriliş cəhdinə rəhbərlik edənlərin də çoxunun məhz Gülən hərəkatına xidmət eləyənlərin olduğu ilə bağlı ehtimallar ortadadır. Çevriliş isə ona görə baş tutmadı ki, ilk dəfə olaraq hərbi çevrilişə xalq kütlələri etiraz edib küçələrə çıxdı və ordu ikiyə bölündü. Bu, Gülən tərəfdarlarının ən böyük uğursuzluğu idi. Dərhal da prezident Ərdoğan Güləni ABŞ-dan daha ciddi şəkildə tələb etməyə başladı və bu tələblər son günlər daha da sərtləşib. Nəticədə ABŞ-la münasibətlərdə bir soyuqluq yaşanır. Mən düşünmürəm ki, ABŞ Güləni belə asanlıqla Türkiyəyə təhvil versin. Hətta məncə, ümumiyyətlə heç təhvil verməyəcək. Bu da sonda ona gətirib çıxaracaq ki, ABŞ-Türkiyə münasibətləri daha çox soyuyacaq. Onsuz da bu hadisəyə qədər də münasibətlərdə soyuqluq var idi. Görünür soyuqluq daha da artacaq. Bunun da qarşılığında Ankara Rusiya ilə münasibətləri sıxlaşdıracaq. Ərdoğan həm üzr istədi, həm də belə çıxdı ki, Rusiya təyyarəsini vuran da darbeçilərdən imiş. Artıq Türkiyə hakimiyyət dairələri tərəfindən belə bir arqument ortaya atılır ki, bu işin də arxasında Gülənin "Hizmət" hərəkatı dayanıb. Rusiya təyyarəsini vurub qəsdən iki ölkə arasında münasibətləri soyutmaq planı olub. Bu iddianın nə qədər doğru, nə qədər yanlış olduğunu indi söyləmək çətindir. Onu gələcək istintaq göstərəcək. Amma hər halda son dağıdıcı proseslərdə Gülən hərəkatının rolu danılmazdır.

Görünür ki, Gülən hərəkatı Azərbaycanda da dərin kök salıb. 1990-cı illərdən başlayaraq qəzetləri, televiziyaları, böyük şirkətləri, maliyyə kanalları qurulub. Azərbaycanın da müxtəlif strukturlarında Gülən hərəkatına xidmət edənlər yer alıblar. Ərdoğan bir neçə il öncə Bakıya səfərində Azərbaycan rəhbərliyinə bir siyahı da vermişdi ki, bu prosesin qarşısı alınsın. Hakimiyyət də bundan sonra müəyyən addımlar atdı. Amma düşünürəm ki, Gülən şəbəkəsi hələ də Azərbaycanda mövcuddur. Çünki ortada böyük pullar var. Yəqin ki, Ankara Bakıdan təmizləmə işlərini daha da sürətləndirməyi istəyəcək. Azərbaycan Türkiyənin strateji müttəfiqidir və böyük ehtimalla Bakı Ankaranın sözünü yerə salmayacaq. Bu şəbəkədən qurtulmaq lazımdır. Bunlar dövlət içində dövlət yaradırlar, Masson lojasına bənzəyirlər, yalnız özlərininkinə dəstək olurlar. Mən Azərbaycanda elə adamlar tanıyırdım ki, heç bir maliyyəsi yox idi, amma Gülən hərəkatına itaət etdikdən sonra milyonlar topladılar. Türkiyənin bir televiziya kanalı iki il öncə məni müsahibəyə dəvət etdi, orada Gülən haqqında bir-iki tənqidi fikir söylədim. Ondan sonra məni həmin televiziyaya çağırmadılar. Bu da bir daha göstərir ki, onlar necə dərin kök salıblar".

Politoloq qeyd etdi ki, Ərdoğan hakimiyyəti Azərbaycan və digər ölkələrdən Gülən hərəkatını terrorçu təşkilat kimi tanımağı istəyəcək: “Belə bir tələb ABŞ-dan da ediləcək. Bu isə ABŞ-la münasibətlərə əlavə soyuqluq gətirəcək. ABŞ-Türkiyə münasibətlərinin soyuqlaşmasının hər iki ölkə ilə sıx münasibətləri olan Azərbaycana da müəyyən təsiri ola bilər. Türkiyə Azərbaycanın strateji müttəfiqidir, ABŞ isə tərəfdaşıdır. Necə ki, biz istəmirdik Türkiyə-Rusiya münasibətləri pozulsun, eləcə də istəmirik ki, Türkiyə-ABŞ münasibətləri pozulsun. Çünki münasibətlər pozulsa, bunun Cənubi Qafqaza da mənfi təsirləri ola bilər. Cənubi Qafqaz bundan zərər çəkər. Amma başqa tərəfdən də nəzərə alaq ki, Türkiyə-Rusiya münasibətlərinin yaxşılaşması Cənubi Qafqazda müsbət atmosfer yarada bilər”.



“ABŞ-Türkiyə münasibətləri pozulsa, qardaş ölkənin rəhbərliyi Azərbaycan qarşısında məsələ qaldıra bilərmi ki, siz də ABŞ-la münasibətlərə yenidən baxın” sualına E.Şahinoğlu belə cavab verdi: “Bu məsələ də çox aktualdır və bu həssas məqama bizdə hələ o qədər də diqqət yetirmirlər. Mən bir misalı önə çəkə bilərəm, Türkiyə-İsrail münasibətləri gərginləşəndə Türkiyənin o zamankı səfiri Hulusi Kılıc bəyan etdi ki, Azərbaycan yenidən İsraillə münasibətlərinə baxsın. Çox yaxşı ki, rəsmi Bakı o zamanlar İsraillə bağlı siyasətini dəyişmədi. Düzdür, Türkiyə bizim strateji müttəfiqimizdir, amma mənim dostumun düşməni avtomatik mənim də düşmənim deyil. Mümkündür ki, kimlərsə Türkiyədə Azərbaycanın da ABŞ-la münasibətlərinə göz gəzdirməsini istəsin. Amma mən düşünmürəm ki, xatırlatdığım İsrail məsələsindən sonra Ankara Bakı qarşısında sərt tələb qoysun ki, siz də Vaşinqtonla münasibətlərə yenidən baxın. Bununla belə əgər belə bir tələb olsa, düşünürəm ki, Azərbaycan ABŞ-la münasibətlərini soyutsun”.

❑ **Etibar SEYİDAĞA**

# “Hərbi çevrilişin qarşısı alınmasaydı, dəhşətli hadisələr yaşanacaqdı



## Tahir Süleyman: “Qiyam qalib gəlsəydi, Türkiyədəki bütün xalqlara faciələr gətirəcəkdi... Türkiyə bayrağı altında bütün xalq birləşdirilməlidir”

**Azərbaycan Kürdləri İctimai Birliyinin sədri, Azərbaycanda Azərbaycan və kürd dilində dərc edilən “Diplomat” qəzetinin baş redaktoru Tahir Süleyman Türkiyədə 15 iyulda hərbi çevrilişə cəhd və bundan sonra siyasi təşkilatların davranışları ilə bağlı “Yeni Müsavat”a açıqlamalar verib.**

Tahir Süleyman bildirdi ki, qardaş Türkiyənin Suriyaya çevrilməsi planının darmadağın edilməsindən Azərbaycandakı kürdlərlə yanaşı, Türkiyədə yaşayan milyonlarla kürd xalqı da sevinib, Türkiyə dövlətinin qorunması üçün meydanlara axışan xalqın içində minlərlə kürd də olub: “Biz həmişə hərbi çevrilişlərə qarşı olmuşuq. Bu gün də hərbi çevrilişə qarşıyıq. Heç bir dövlət və xalq hərbi çevrilişdən fayda görməyib. Hərbi çevrilişlər dövlətə və xalqa fəlakətlərdən başqa heç nə gətirməyib. Şükürlər olsun ki, Türkiyəni Suriya kimi darmadağın vəziyyətə salacaq məkrli hərbi çevriliş planı baş tutmadı. O xain planın gerçəkləşməsinə cəhd olan gündən indiyə qədər keçən 10 gündə baş verənləri, Türkiyədə əhalinin, siyasi təşkilatların davranışını izlədikdə Türkiyə cəmiyyətinin necə ayıq-sayıq olduğu, dövlət üçün təhlükə yarananda hər kəsin necə bir araya gəldiyini görməmək mümkün deyil. Hətta PKK-nın özü belə, hərbi çevrilişi pislədiyini bəyan etdi. Bəzilərində belə təsəvvür var ki, Türkiyə iqtidarına müxalifətdə olan iri siyasi partiyalardan CHP və MHP hərbi çevriliş məsələsində Ərdoğan iqtidarına siyasi dəstək versə də HDP heç bir formada dəstək verməyib. Bu fikir yanlışdır. HDP və onun həmsədri Səlahəddin Dəmirtaş ilk gündən bəyanatla çıxış edərək hərbi çevrilişin dövlət üçün təhlükə olduğunu, qəbuledilməz olduğunu bəyan etdi. Bu, dövlətçilik üçün təhlükə anında dövlətə və iqtidara siyasi dəstək deyilmi?”

T.Süleyman dedi ki, meydanlara axışan əhalinin sıralarında minlərlə kürd də olub, kürdlərin daha sıx yaşadığı bölgələrdə HDP-nin və digər kürd siyasi təşkilatlarının təşkilatçılığı ilə bu 10 gündə çoxlu sayda mitinqlər keçirilib: “Həmin mitinqlərdə Türkiyədə demokratiyanın qurulmasına dəstək, hərbi çevrilişə etiraz ifadə olunub. Diyarbəkirdə əhali meydanlara töküldü və hərbi çevrilişin baş tutmaması münasibətilə yüzlərlə qurbanlar kəsildi. Bütün bunlar Türkiyə dövlətinin qorunmasında, Türkiyədə demokratiyanın inkişafında kürdlərin maraqlı olduğunu bir daha ortaya qoyur. Türkiyə xalqı demokratiyanın, dövlətin müdafiəsinə qalxdı və Türkiyənin Suriya kimi fəlakətə uğramasının qarşısı alındı. Bu hərbi çevrilişin qarşısı alınmasaydı, Yaxın Şərqdə olduğu kimi Türkiyədə də dəhşətli hadisələr yaşanacaqdı. Bu isə Türkiyədə yaşayan bütün xalqlara faciələr gətirəcəkdi. Bunu kürd xalqı da yaxşı bildiyindən hərbi çevrilişə qarşı öz mövqeyini qoydu və bu gün də kürdlər yaşayan bölgələrdə mitinqlər keçirilir. Prezident Ərdoğan şəxsən özü bəzi kürd təşkilatlarına, o cümlədən Hudapar adlı siyasi təşkilata demokratiyanın müdafiəsinə qalxdıqları üçün təşəkkürünü bildirib”.

T.Süleyman onu da qeyd etdi ki, hərbi çevriliş cəhdi iqtidarın siyasətində ordu ilə bağlı boşluqların olduğunu da ortaya çıxarmış oldu: “Türkiyə iqtidarı bundan nəticə çıxarmalı və indiyə qədər buraxılan boşluqlar, yanlışlıqlar düzəldilməlidir. Türk ordusunun müəyyən hissəsinin ölkə rəhbərliyinin deyil, kənar qüvvələrin əmrinə keçməsi həm də illər boyu buraxılan boşluqlardan irəli gəlib. Türkiyədə əsl demokratiya qurulmalıdır, Türkiyənin bayrağı altında bütün xalq birləşdirilməlidir. Hər kəsə demokratik haqlar verilməlidir. Ölkənin bütövlüyü bundan keçir”.

❑ **Etibar SEYİDAĞA**

# MTN-çilərin intiharında "mahmudovçu"ların izi araşdırılır

## Həbsdəki MTN generalı intihar edən polkovnikin qardaşına nə deyib?



**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin(MTN) Antiterror Mərkəzinin həbsdəki rəisi, general Elçin Quliyev həyatına özünəqəsdlə son qoyan 55 yaşlı MTN polkovniki Malik Mustafayevin qardaşı, bu günlərdə həbsdən çıxan Mətləb Mustafayevlə üzləşdirilib. Bu haqda gununsesi.info-nun yaydığı məlumatda qeyd edilir ki, Bakı İstintaq Təcridxanasında keçirilən üzləşmə prosesində Mətləb Mustafayev bir daha Elçin Quliyevi gözlərinin içinə baxaraq, onu ifşa edib. O, qardaşının intiharına görə generalı ittiham edib. Üzləşmə prosesi 2 saata yaxın çəkib.**

Qeyd edək ki, Malik Mustafayevin qardaşı Mətləb Mustafayev bir müddət əvvəl sensasion video yaymışdı. Mətləb Mustafayev videomüraciətində Əmlak Məsələləri Üzrə Dövlət Komitəsinin sabiq işçisi olduğunu, komitədən qanunsuz işdən azad edildiyinə görə məhkəməyə üz tutduğunu və bundan sonra MTN əməkdaşları tərəfindən qanunsuz həbsə məruz qaldığını deyir. Ən ilginc iddia isə MTN-nin "qara maskalı"larının komitə sədri Kərəm Həsənovun sifarişiylə onu həbs etməsi, MTN-də aparılan danışıqlar, bacısının həyatınə MTN-çilərin basqın etməsindən sonra qardaşının canına qəsd etməsidir. Şikayətçi iddia edir ki, MTN-də zabit olan qardaşı nazir Eldar Mahmudovun və digər vəzifəlilərin qəbulundan çıxdıqdan sonra evində intihar edib.

31 ilin MTN zabitinin özünü öldürməsinə hüquq-mühafizə orqanlarının yanaşması da sual doğurur. Təsəvvür edin ki, həmin dövrdə ölüm işi "cinayət tərkibi olmadığı" qeydi ilə xitam edilib.

MTN-in digər zabiti, polkovnik Azər Əliyevin özünə qəsd etməsi işi də eynilə araşdırılmamış qalıb. Bu gün həbsdə olan MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun işçisi olan 40 yaşlı A.Əliyev "mahmudovçular" ifşa edilməzdən 6 ay əvvəl, 2015-ci ilin aprelində Nərimanov rayonu, Həsənoğlu küçəsi 16 saylı binanın 7-ci mərtəbəsindən özünü ataraq intihar edib. A.Əliyev intihar etməzdən əvvəl A.Çovdarovun qəbuluna çağırıldığı haqda da məlumat var. Təəssüf ki, Nərimanov Rayon Prokurorluğunda polkovnik-leytenant rütbəli MTN zabiti Azər Əliyevin ölümünə sıradan bir intihar olayı kimi yanaşıb ölüm faktına görə başladılan cinayət işinə xitam verməklə bir kənara qoyublar. Gələn məlumatlar onu deməyə əsas verir ki, M.Mustafayevin intihar işi yenidən araşdırma mövzusudur, A.Əliyevin müəmmalı ölümü ilə bağlı isə istintaqın yenilənməsi haqda xəbər yoxdur.

**❑ E.HÜSEYNOV**

# Ermənilərdən növbəti xain hərəkət - düşmən Qarqar çayı ilə top mərmisi axıdır



**Ağcabədidə Qarqar çayında top mərmisi tapılıb. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlikdən (ANAMA) Trend-ə verilən məlumata görə, iyulun 24-də saat 08:22-də Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzinə və saat 08:12-də "102" Xidməti - Zəng mərkəzi sisteminə Ağcabədi rayonu Qiyaməddinli kəndi ərazisindən keçən Qarqar çayında partlamamış mərminin aşkar olunması barədə məlumatlar daxil olub.**

Məlumatlara əsasən, Agentliyin xüsusi mobil çevik əməliyyat qrupu dərhal həmin əraziyə göndərilib. ANAMA mütəxəssisləri tərəfindən həmin əraziyə baxış keçirilib, aparılan əməliyyat tədbirləri nəticəsində aşkar olunmuş bir ədəd partlamış top mərmisinin ballistik qapağı götürülərək Agentliyin mərkəzi məhvetmə ərazisinə daşınıb.

Sursatın ətrafında 3000 kv.m əraziyə yerüstü baxış keçirilib, təhlükəli əşya və qurğu aşkar edilməyib.

**Xəbər verildiyi kimi, Vəkillər Kollegiyası(VK) Şəfiqə Nağıyevanın fəaliyyətini dayandırıb. Şəfiqə Nağıyeva bunu özünü qarşı haqsızlıq adlandırmaqla VK sədri Azər Tağıyevin ünvanına ittihamlar yağdırıb. Ş.Nağıyeva gununsesi.info-ya deyib ki, A.Tağıyev onunla illərdir ki, mübarizə aparır: "Mənə qarşı haqsızlıq olub. Mən məhkəməyə müraciət edəcəyəm. Azər Tağıyev uzun illərdir ki, mənimlə mübarizə aparır".**

# Vəkillər Kollegiyasının sədri ittihamlar qarşısında susur

## Azər Tağıyev prezidentin qovduğu şəxsi quruma üzv edib



Ş.Nağıyeva bildirib ki, populyarlığı Azər Tağıyevin qısqanclığına səbəb olub: "Ayıbdır, kişi bir qadınla mübarizə aparır. Məni ləkələmək istəyir. Bir günahım varsa, qanunla tənzimlənsin, daha fəaliyyətim niyə dayandırılır? Kollegiyada vəkil deyilən kəs qalmayıb. Azərbaycanın bütün tanınmış vəkillərini kollegiyadan uzaqlaşdırıb. Bu adamın gözü heç kimi götürmür. Biz haqsızlıqlara dözə bilmirik. İstəyirlər ki, hamı Azər Tağıyevin qarşısında baş əysin. Əslində isə Vəkillər Kollegiyasında cinayətkarlar, məsuliyyətə cəlb olunmuşlar da işləyir. İndi ad çəkmirəm, amma lazım olsa onların adını açıqlayacağam".

Ş.Nağıyeva qeyd edib ki, bu yaxınlarda vəkillərdən biri həbsxanaya telefon keçirərkən yaxalanıb, amma A.Tağıyev həmin adamı müdafiə edib: "Niyə müdafiə edib? Özü də həmin vəkil İntizam Komissiyasının sədridir".

A.Tağıyev VK-nın iyə bu vəziyyətə salıb? A.Tağıyev vəkillərin çiyinləri üzərində bu posta gətiriləndə kim idi, indi kimə çevrilib?

### Qanuna vuralan yamaqların bədəli

Qısa xatırlatma. 2004-cü il yanvarın 22-si. "Avropa" hotelində Prezidentin İcra Aparatı(indiki Prezident Adminstrasiyası), ATƏT-in Bakı ofisi və Amerika Hüquqşünaslar Assosiasiyasının Mərkəzi Avropa və Avrasiyada Hüquq Təşəbbüsünün (ABA CEELİ) Azərbaycandakı nümayəndəliyi ilə birlikdə təşkil etdiyi vəkillik sahəsinin islahatları mövzusunda konfrans keçirilir.

Tədbirdə Avropa Şurası, ATƏT-in Bakı ofisi, ABA CEELİ, GTZ, TACİS, USAİD, ABŞ səfirliyinin nümayəndələri, Ankara Vəkillər Bürosunun başqanı, VK-nın, Prezident Aparatının, Baş Prokurorluğun, Ombudsman Aparatının, Konstitusiya Məhkəməsinin, Azərbaycan Hüquqşünasları Forumunun nümayəndələri, bir sıra hüquq firma və təşkilatlarının üzvləri, KİV nümayəndələri iştirak edir. Tədbirdə çox vəkillər çıxış edib dəyərli fikirlər söyləyir. Qeyd edirlər ki, "Vəkillər və vəkillik fəaliyyəti haqda" Qanuna əlavə və düzəlişlər adında yamaq vurmağa ehtiyac yoxdur. Əvəzində yeni kollegiya sədri seçilməsinin ən düzgün yol olduğu ölkə rəhbərliyinin və beynəlxalq təşkilat nümayəndələrinin diqqətinə çatdırılır.

Beləcə, Ə.KərimovA.Tağıyevin kreslo ilə doğmalaşmasını və nəticədə üzə çıxan biabırçılığı tədbir iştirakçılarının diqqətinə çatdırmışdı.

### Yamaqlı qanunun mürtəce övladı

Ötən illər ərzində "Vəkillər və vəkillik fəaliyyəti haqda" Qanuna elə dəyişikliklər olub ki, bu gün Vəkillər Kollegiyasının sədri Azər Tağıyev məhkəməsiz-filansız istədiyi vəkili kollegiyadan uzaqlaşdıra bilir. Vəkillərin Vəkillər Kollegiyası adlı qurumdan özlərini müdafiə etmələri üçün bircə yolları qalıb - Azər Tağıyevin şəxsi xahiş və istəklərini susqun razılıqla yerinə yetirmək. Özü də təkcə Azər Tağıyev deyil, əks cinahda olan hüquq-mühafizə orqanlarından gələn göstərişləri də yerinə yetirməlidirlər. Müdafiə institutu üzərində tam qələbənin elanı üçün AzərTağıyevin ömürlük sədrliyi məsələsinin həlli qalıb.

Bu günə qədər A.Tağıyev özünü bir neçə dəfə VK sədri elan edib və artıq ömürlük olaraq sədrlik uğrunda mübarizənin pik nöqtəsinə yaxınlaşıb. Odur ki, öz sözünü deyən, cəmiyyətdə müəyyən qədər tanınan, məhkəmələrdə həqiqi vəkillik fəaliyyəti ilə məşğul olan hər kəsi potensial rəqibi kimi görür.

A.Tağıyevin vəkil olmaq istəyənlərə qarşı addımları da ömürlük sədrliyə gedən yolun tarazlaşdırılmasına xidmət edir. Ş.Nağıyeva bildirir ki, VK-da cinayətkarlar var. O, kimi nəzərdə tutur?

Bu xüsusda yazdıqlarımıza bir də nəzər salaq.

1992-ci il, Azər Tağıyev: "... müdafiə institutu hakimiyyət orqanının tabeliyindən çıxarılmalıdır"

A.Tağıyevin müdafiəsinə qalxan bir xanım nümayəndə isə deyir ki, buna heç bir ehtiyac yoxdur. Onun bu sözləri vəkil Əyyub Kərimovun etirazına səbəb olur və o, bu gün üçün də aktual olan sualları A.Tağıyevə verir: "Sözünüzə əməl etmisinizmi, Azər Tağıyev?" 1992-ci ildə "Femida" qəzetinə verdiyin müsahibəni xatırlayırsan? Görürəm ki, yox, bəzi məqamları yada salmaq lazımdır. Müsahibənizdə demişdiniz ki, "....müdafiə institutu hakimiyyət orqanının tabeliyindən çıxarılmalıdır". Çıxarılıbmı? "...Vəkillər Kollegiyası qədər ikinci bir hüquqsuz orqan yoxdur" İndi belə deyilmi? "...Vəkillik fəaliyyəti ilə bağlı konsepsiyalar hazırlanmalıdır". Hazırlanıbmı? İşçi qrupunda hər hansı fikir ayrılığı olubmu ki, ona müqavimət göstərəsiniz?"

### "Şifahi dedilər ki, imtahana buraxmırlar"

2005-ci ilin yanvarında vəkilliyə qəbul üçün sənədlərini VK-ya təqdim edən Abdulla Əfəndizdənin başına gələnlər bu biabırçılıqların bu gün də davam etdiyini və daha pis forma aldığını göstərir. A.Əfəndizadə deyir ki, test imtahanlarını verərək şifahi müsabiqəyə buraxılıb. Lakin testdən keçən A.Əfəndizadə şifahi imtahandan keçməyib: "2006-cı ildə mənə məlum oldu ki, imtahanda mənə sual verən Azər Tağıyev vəkillərin ixtisas komissiyasının nəinki sədri, hətta sıravi üzvü də olmayıb. Dəmə, mənə cəmi bir sual vermiş Ramiz İbrahimov komissiyanın sədri imiş. Ona

görə də məhkəməyə müraciət etdim".

A.Əfəndizadə deyir ki, "Vəkillər və vəkillik fəaliyyəti haqda" Qanunun 13-cü maddəsinin 8-ci bəndinə əsasən ixtisas imtahanını verə bilməyən şəxs bir ildən tez olmamaqla ixtisas komissiyasının rəyi əsasında təkrar imtahana buraxıla bilər: "2007-ci ilin yayında VK-ya rəsmi müraciət etdim. Mənə rəsmi cavab verməDilər. Şifahi dedilər ki, imtahana buraxmırlar. Bunun səbəbini izah da etmədilər".

Prezidentin qovduğu şəxsi Azər Tağıyev Vəkillər Kollegiyasına imtahansız qəbul edib!

A.Əfəndizadə demişdi ki, vəkil olmaq istəyən savadlı insanlar A.Tağıyevin qanunsuz hərəkətləri nəticəsində kənarda qalır. Rüşvətxor və biabırçı hərəkətlərinə görə prezident fərmanı ilə hakimlikdən qovulan şəxslər isə kollegiyaya üzv qəbul olunur: "Azər Tağıyev o qədər arxayınlaşıb ki, 2009-cu ilin iyul ayında prezidentin fərmanı ilə 2005-ci ildə hakimlik vəzifəsindən uzaqlaşdırılan şəxsi - Nizami Rayon Məhkəməsinin keçmiş hakimi Vilayət Nadirovun test imtahanları vermədən kollegiyaya üzv qəbul edilməsi barədə qərar çıxarıb. Necə olur? Mən 2005-ci ildə test imtahanlarını uğurla verirəm, şifahi müsabiqədən keçmirəm. 2007-ci ildə müraciət edirəm, mənə heç bir cavab göndərilmir. Lakin digərləri, o cümlədən prezidentin fərmanı ilə 2005-ci ildə hakimlik vəzifəsindən uzaqlaşdırılan Vilayət Nadirovun test imtahanları vermədən kollegiyaya üzv olması barədə qərar verilir".

Haqlı suallardır. Ə.Kərimovun 2004-cü ildə, A.Əfəndizadənin isə 5 il sonra, S.Nağıyevanın 7 il sonra verdiyi suallara A.Tağıyevin cavabını dərc etməyə hazırıq.

**❑ E.MƏMMƏDƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Ermənistan əlverişsiz sülh anlaşmasından yayınmağa çalışır

## Sərkisyan rejimi ölkədəki daxili qarışıqlıqlardan Qarabağ məsələsində məsuliyyətdən qaçmaq üçün yararlanmağa səy edir; **rusiyalı politoloqdan xəbərdarlıq:** "Qarabağda müharibə ehtimalı dəfələrlə artacaq, əgər..."

**Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün avqust ayında keçirilməsi nəzərdə tutulsa da, hələlik görüşün yeri və konkret tarixi barədə konkret məlumat yoxdur. Lakin Ermənistanda cərəyan edən olaylar bu görüşün effektli olacağına şübhələri artırıb.**

Məsələ ondadır ki, prezident Serj Sərkisyana qarşı daha radikal, faktiki "müharibə partiyası"nı təmsil edən silahlı müxalifət müqavimətə və mübarizəyə başlayıb. Əsas tələb də Sərkisyanın istefası, Qarabağ məsələsində hər hansı güzəştə yol verilməməsidir. Bu vəziyyət də istər-istəməz Serj Sərkisyanı öz hakimiyyətini saxlamaq üçün Dağlıq Qarabağla bağlı hər hansı geri addımla bağlı olduqca ehtiyatlı olmağa sövq edir.

Doğrudur, son məlumatlara görə, qiyamçılar 6 gündən sonra girov polisləri azad ediblər. Amma bu, heç də o anlama gəlmir ki, Ermənistanda situasiya sabitləşib. Ən azı ona görə ki, radikal müxalifətçi qrupun girovgötürmə əməliyyatını şərtləndirən motivlər yerində qalır. Bu da ilk növbədə rəsmi İrəvana Qarabağ məsələsində hər hansı güzəştə getməyə imkan verməməkdir.

"Bizim qrupun təslim olmaq niyyətində olması barədə bütün xəbərlər yalandır. Biz yalnız aşağıdakı tələblərimiz yerinə yetirildikdə silahlarımızı yerə qoyacağıq: Serj Sarkisyanın istefası, heç bir halda hakim Respublika Partiyasının üzvlərinin tərkibində yer almayacağı müvəqqəti hökumətin formalaşdırılması və yeni seçkilərin keçirilməsi", - deyə jurnalistlərə açıqlamasında silahlı qrupun üzvü Varujan Avetisyan bildirib.

Bu arada o da bəlli olub ki, polis alayının binasını ələ keçirmiş silahlı qrup separatçı rejimin nümayəndəsinin vasitəçiliyindən imtina edib. Qrupun üzvü Varujan Avetisyan deyib ki, hazırda hakimiyyətlə danışıqlarda vasitəçi qismində çıxış edən separatçı rejiminin nümayəndəsi Vitali Balasanyan bundan sonra vasitəçi missiyasını həyata keçirməyəcək. Səbəb kimi, Vitali Balasanyanın silahlı qrupla görüşə gələn mətbuat nümayəndələrinin işinə mane olması bildirilir.



"Biz vasitəçilik etmələri üçün digər şəxslərlə danışıqlar aparırıq. Vasitəçinin adı aparılan danışıqlardan sonra elan olunacaq", - deyə Avetisyan bildirib. Bundan əvvəl silahlı qrup təslim olmaq niyyətində olmadığını bəyan edib.

Yada salaq ki, iyulun 17-də bir qrup silahlı şəxs İrəvan ətrafındakı Erebuni rayonunda polis şöbəsinin binasını ələ keçirib. Onlar polis tərəfindən saxlanılmış Qarabağ müharibəsi veteranı Jirayr Sefilyanın azadlığa buraxılmasını tələb ediblər. Hücum zamanı bir polis ölüb, 5-i polis olmaqla 6 nəfər yaralanıb.

***

Bəs, qonşu ölkədəki qeyri-müəyyənlik nə qədər sürə bilər, axı, belə bir durum - rəsmi İrəvanın güzəştlərə dirənişi labüd olaraq müharibəyə aparır ki, bu da öz növbəsində hakim rejimin marağında deyil, çünki böyük müharibə də gec-tez onun süqutuna gətirəcək.

"Belə təəssürat yaranır ki, Ermənistanda məqsədli şəkildə çalxalanma və narazılıq situasiyası yaradılır. Çünki etirazçıların əsas tələbi Dağlıq Qarabağa dair dinc danışıqlarla bağlı səyləri dayandırmaqdır". Bu sözləri rusdilli vesti.az saytına müsahibəsində rusiyalı konfliktoloq Yevgeni Mixaylov işğalçı ölkədəki son prosesləri şərh edərkən deyib.

Ekspertə görə, mövcud vəziyyət işğal olunmuş ərazilərin bir qismini faktiki qaytarmağa razılıq vermiş Sərkisyanı qane edə bilər. "Onu elə bunda ittiham edirlər və ehtimal eləmək olar ki, Sərkisyan danışıqların pozulmasına görə məsuliyyəti qiyamçıların üzərinə qoymağa cəhd edir. Mövcud durumda istisna deyil ki, Sərkisyan özünü kənara çəkəcək və münaqişə daha da dərinləşəcək. Lakin Ermənistan əhalisi siyasi çəkişmə və didişmələrdən bezib. Ölkənin zəif iqtisadiyyatı nəticəsində fəal əhalinin böyük hissəsi xaricə çıxıb gedib. Bu amil qiyamçıların xalqı müharibəyə qaldırmaq kimi pərdəarxası intriqasına qarşı işləyə bilər və mümkündür ki, daxildə siyasi elitalar arasında münaqişənin dərinləşməsinə imkan verməsin" - politoloq qeyd edib.

Ekspertin fikrincə, Ermənistanda vəziyyətin qarışması heç kimə lazım deyil. "Nə Bakıya, nə Ankaraya, nə də ələlxüsus Moskvaya bu, sərf edir. Çətin ki, bu gün Ermənistanda çevriliş mümkün olsun. Dağlıq Qarabağ ətrafındakı situasiyaya gəlincə, baş verən hadisələrin bütün məntiqi sübut edir ki, məsələ ətrafında kompromis tərəfdarlarının sayı getdikcə artmaqdadır. Türkiyədə çevriliş cəhdinin iflas olması da bu məsələyə öz pozitiv təsirini göstərəcək" - konfliktoloq əlavə edib.

***

Ermənistandakı son durumu şərh edən Rusiyadakı Konstruktiv Siyasət Fondunun direktoru Abdul Naqiyevə görə isə, aprel ayında təmas xəttindəki hadisələr Ermənistanda 20 ildir hakimiyyəti əlində saxlayan "Qarabağ klanı"nın strategiyasını laxladıb. "Erməni konstruksiyasının bütün elementləri laxlayıb, hərbi və diplomatik strategiya laxlayıb" - politoloq deyib.

Onun qənaətincə, yaranmış vəziyyətdə hakimiyyəti saxlamaq Serj Sərkisyana kifayət qədər çətin olacaq. "Ancaq Ermənistanda hakimiyyət dəyişərsə, Qarabağda geniş miqyaslı hərbi əməliyyatların bərpası ehtimalı dəfələrlə artacaq. Sərkisyanı yalnız "müharibə partiyası" hakimiyyətdən sala bilər. Başqa qüvvələrin, sadəcə, belə şansı yoxdur. Bu isə böyük müharibəyə aparan birbaşa yoldur" - ekspert qeyd edib.

***

Amma belə görünür, müharibə, erməni xalqının növbəti və daha böyük itkilər verməsi Ermənistandakı "müharibə partiyası"nı çox az maraqlandırır. Tam yanlış olaraq ermənilərə elə gəlir ki, Qarabağ məsələsində "Qarabağ klanı"ndan, Sərkisyan rejimindən artığına nail ola bilərlər. Əlbəttə ki, illüziyadır. Ona görə ki, radikal yolun Ermənistana, erməni xalqına 22 illik atəşkəs dövründə yaxşı heç nə gətirmədiyini bundan əvvəlki "müharibə partiyası" - Köçəryan-Sərkisyan idarəçiliyi əyani göstərib.

İkinci yandan, Azərbaycan, onun ordusu 22 il öncəki deyil. Gərək ki, işğalçı tərəf öz radikal ünsürləri ilə birgə buna apreldəki 5 günlük müharibə zamanı əmin olub. Yenə şübhələri varsa, Azərbaycan Ordusu düşmənə növbəti qulaqburmasını verə bilər. Hər necə olmasa, Azərbaycan milyardlarla dollar xərc çəkib aldığı müasir hərbi sistemləri və döyüş maşınlarını, silah-sursatı vitrinə qoymaq fikrində deyil.



Ceyms Uorlik

# Vasitəçilər tərəfləri atəşkəsə əməl etməyə çağırır

**ATƏT-in Minsk Qrupunun (MQ) həmsədrləri Dağlıq Qarabağ münaqişəsi tərəflərindən atəşkəs rejiminə ciddi riayət etmələrini gözləyir. Bunu ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik deyib (Virtualaz.org).**

"Biz tərəflərin, əsasən Vyanada görüşündən sonra əldə edilmiş atəşkəs rejiminə ciddi riayət etməsini gözləyirik. Yenidən gücdən istifadəyə hər hansı qayıdış vasitəçilər və həmsədr ölkələr tərəfindən ciddi şəkildə qınanılacaq", - deyə Uorlik İrəvanda çıxan "Aravot" qəzetinə müsahibəsində vurğulayıb.

Uorlik xatırladıb ki, vasitəçilər tərəfləri Vyana və Sankt-Peterburq görüşlərində əldə edilən razılaşmaları yerinə yetirməyə çağırır. Bu razılaşmalar ATƏT-in Monitorinq Qrupunun genişləndirilməsini, təmas xəttində insidentlərin araşdırılması mexanizminin yaradılmasını, münaqişənin hərtərəfli tənzimlənməsinə apara biləcək mahiyyəti üzrə danışıqların aparılmasını ehtiva edir.

"Sankt-Peterburqda tərəflər arasında danışıqların yenidən başlanılmasını görmək bizdə ümid yaradıb. Növbəti addım monitorinq missiyasının genişləndirilməsidir. Bununla bərabər, həmsədrlər tərəflərlə insidentlərin araşdırılması mexanizmi ilə bağlı təklif üzərində işi dayandırmayacaq", - deyə amerikalı həmsədr bildirib.

Lakin diplomat bir şeyi unudur ki, Azərbaycan ərazilərinin işğalı davam etdikcə, heç bir araşdırma missiyası effektli olmayacaq və mövcud status-kvo fonunda Bakı öz əl-qolunu bağlayacaq, işğal rejiminin isə ömrünü uzadacaq heç bir addıma razılıq verməyəcək.


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 160 (6481) 25 iyul 2016

# Gənclər ali məktəbə daxil olanda sevinir, qurtaranda isə iş tapmırlar - çözüm nədir?

**Gənclər ali məktəbə daxil olanda sevinclərinin həddi-hüdudu olmur. Hətta bunu xüsusi təmtəraqla qeyd edirlər. Ancaq ali məktəbi bitirib diplomlu işsizlər cərgəsinə qoşulduqda isə onların bu sevinci qursağında qalır. Maraqlıdır, əksər ali təhsilli, savadlı gənclərimizin iş tapa bilməməsi nə ilə bağlıdır? Planlaşma düzgün aparılmır, yoxsa tamamilə başqa səbəblər var?**

Sosioloq Əhməd Qəşəmoğlu planlaşmanın düzgün aparılmadığını dedi: “Bunun da əsas səbəbi müasir elmin imkanlarından istifadə etməməyimizdir. Müasir elmin imkanları o deməkdir ki, biz əvvəlcə aydınlaşdırmalıyıq ki, ölkənin tərəqqisi deyiləndə əsas hansı göstəriciləri nəzərdə tutmalıyıq. Yəni Azərbaycanın bir dövlət kimi tərəqqi etməsində əsas göstəricilər hansıdır. Aydınlaşdırmalıyıq ki, uğurlara nail olmaq üçün hansı sahələrə diqqət verməliyik. Bu sahələrin göstəricilərini dəqiqləşdirməliyik. Bu göstəricilər dəqiqləşəndən sonra konkret aydın olacaq ki, Azərbaycanın arzu etdiyimiz şəkildə inkişafı, tərəqqisi üçün hansı göstəricilər üzrə bizim mütəxəssislərimiz lazımi səviyyədədir, hansı göstəricilər üzrə bizim mütəxəssislərimiz azdır. Onda strukturları elə quracağıq ki, bu strukturlar bu göstəricilər üzrə uğur qazanmamıza kömək etsin. Təəssüf ki, bu məsələyə elmi şəkildə diqqət yetirilmir. Ürək ağrısıyla deyim ki, 94-cü ildə bu istiqamətdə xeyli təkliflərim olub və bu istiqamətdə təqdim etdiyim və indi də təqdim edə biləcəyim konsepsiyalar var. Amma təəssüf ki, strukturlar buna etinasız yanaşırlar. Yəni bu məsələlərin Əhməd Qəşəmoğlunun, yaxud da bir qəzetin hansısa bir təklifi ilə mümkün olmayacaq. Müasir elmin tələblərinə görə, müasir cəmiyyətin inkişafının tələblərinə uyğun elmi konsepsiyalar olmalıdır. Bu zaman hər şey bir-biri ilə uyğunlaşacaq. Bu zaman məlum olacaq ki, nə qədər mütəxəssis hazırlamaq lazımdır, bu mütəxəssislər gələcəkdə nə cür yerləşdiriləcək. İstənilən məmur ölkəyə, prezidentə kömək etmək istəyirsə, bu işlərə elmi şəkildə yanaşmalıdır. Təəssüf ki, bu da yoxdur”.



**Sosioloq:** “Planlaşdırma düzgün aparılmır”



**Təhsil eksperti:** “Qəbul bəzi ixtisaslarda tələbatdan daha çoxdur”

Təhsil Şurasının sədri, təhsil eksperti Əjdər Ağayev isə bazar iqtisadiyyatında planlaşmanın olmadığını dedi: “Ölkəmizdə bazar iqtisadiyyatıdır. Yəni münasibətlər kapitalist münasibətləridir. Bazar iqtisadiyyatında planlaşdırma olmur. Tələblər iqtisadi qazanclarla, maliyyə qazanmaqla ödənilir. Bunun da əsas yolu təhsil almaq yoludur ki, təhsil alırsan, ixtisasa yiyələnib mütəxəssis olasan və sənin mütəxəssisliyinin uyğun olduğu bir yerdə işləyib, qazanırsan. Orta məktəbi bitirəndə hamı sevinir və hesabat verilir ki, tutaq ki, 150 min şagird məzun oldu. 150 min şagirdin hamısı ali məktəbə qəbul ola bilməz. Çünki o qədər iş ehtiyatı yoxdur. Ali məktəbə müəyyən miqdarda qəbul qoyulur. Hətta keçən il deyildi ki, ali məktəbə qəbul planı qoyulmayacaq. Amma iş məsələsi artıq nə ali məktəbin, nə o adamın ixtisas qazanması ilə bağlı olaraq öz fəallığı deyil. İş tapması ayrı-ayrı təsərrüfat sahələrindəki ehtiyacla bağlıdır. Buna görə də qəbul planı o qədər də rol oynamır. Amma hələ də planlılıq buraxılışda, qəbulda nəzərə alınır. Bu planlılıq əgər varsa, sosial tələbatı ödəyən idarələr bilməlidir ki, kənd təsərrüfatına, mühəndislik sahələrinə, təyyarəçiliyə nə qədər mütəxəssis lazımdır. Onlar bu plana uyğun olaraq təxmini də olsa, qəbul olunsun və bitirənlər iş yerləri ilə təmin olunsun. Amma bu nəzərdə tutulmayıb”.

Ə. Ağayev bəzi ixtisasların tələbatdan çox kadr yetişdirdiyini dedi: “Qəbul bəzi ixtisaslarda tələbatdan daha çoxdur. Ona görə də çoxdur ki, indi sərhədlər açıqdır. Bəlkə Azərbaycan universitetlərini bitirən hansısa gənc öz ixtisası üzrə Türkiyədə, Rusiyada və ya başqa ölkədə işləyəcək. Görürsüzmü, Azərbaycanda nə qədər xaricdən gələn mütəxəssis var. Onlar bizim mütəxəssislərin yerini tutub. Ali məktəb məzunları sanki buraxılır dəryaya. Bu dəryaya girənlərdən nə qədəri iş tapa bilər, bu, onların özündən asılıdır. Nə qədəri iş tapa bilməz, nə qədəri magistraturaya gedər - bu, artıq ali məktəb məzunlarının öz işidir. Elə ali məktəblər var ki, müəyyən ixtisaslar üzrə qəbul keçirəndən sonra sonuncu kursda təcrübə keçirdilir. Bu təcrübə müxtəlif qurumlarda, neft buruqlarında keçir. Bu praktika keçəndə görünür həmin sahənin insanları bu tələbələrdən kimlərisə gözaltı edə bilir. Burada da o uşaqların oxuduqları ali məktəbin böyük rolu var. Bu cəhətdən ali məktəbin üzərinə iş düşür. Digər cəhətdən isə bazar iqtisadiyyatıdır və hər kəs özü iş tapmalıdır. Başqa bir pis cəhət isə odur ki, müəyyən ixtisası qurtaran tələbə tamamilə başqa ixtisas üzrə işləyir. Əsas buna fikir vermək lazımdır ki, iş yerləri müəyyənləşdirilsin və o iş yerlərinə sırf mütəxəssislər qəbul olunsun. Amma bizdə bəzən görürsən ki, ata əti, itə isə otu verirlər. Buna görə də çox zaman iş getmir. Bizdə yerləşdirmə düzgün deyil. Yerləşdirmə düzgün olsa, məzunlar indikindən daha lazımlı səviyyədə yerləşə bilərlər. Biz orta məktəb məzunlarını alqışlarla qarşılayırıq, ali məktəbə girir sevinirik, amma ali məktəbi qurtaranda ancaq onun ailəsi sevinir. Heç kim buna sevinmir”.

❑ **Günel MANAFLI**

# Eşşək ətindən kolbasanı xərçəng yaradan tomat pastaları əvəzləyib

## Dükan-bazarlarımızda satılan “Senyor” və “SSSR” markalı pastaların tərkibində təhlükəli birləşmələr var

**Azərbaycanda geni dəyişdirilmiş məhsulların (GMO) satışının qarşısının alınması yolunda atılan addımlar yetərli deyil. Qadağalara baxmayaraq ölkəyə tərkibində insan orqanizmi üçün ziyanlı olan qida məhsulları gətirilməkdədir.**

Bir müddət əvvəl Azərbaycana zebu ətindən kolbasa məmulatlarının gətirildiyi, ölkə ərazisində təkdırnaqlıların, hətta caynaqlı heyvan-quşların ətindən belə ət və ət məhsullarının hazırlandığını yazmışdıq. Oxucumuz Qabil Abdullayevin redaksiyamıza yolladığı şikayətdə Azərbaycanın dükan-bazarlarında satılan “Senyor” və “SSSR” markalı tomat pastalarının zərərli əlavələrlə zəngin olması haqda fikirlər əksini tapıb.

Oxucumuzun qeydlərindən belə aydın olur ki, Rusiyada istehsal olunan “Senyor” və “SSSR” markalı tomat pastası məhsullarının tərkibində pomidorla yanaşı, insan orqanizmi üçün təhlükəli benzoy və sorbat turşuları, şəkli dəyişdirilmiş kartof nişastası və natrium benzonat var. Bu məhsullar xörək hazırlanan zaman temperaturun yüksəlməsi nəticəsində xərçəng yaradan maddəyə çevrilir.




Maraqlıdır ki, tomat pastalarının qablaşdırılması üzərində Azərbaycan dilində tərkib haqda məlumat var. Həmin məlumatda tomatın hazırlanmasında istifadə olunan kartof nişastası şəkli dəyişdirilmiş kimi qeyd edilir. Belə anlamaq olar ki, bu söz oyunudur və “şəkli dəyişdirilmiş” sözləri “geni modifikasiya edilmiş” sözünün yazılmaması, alıcının diqqətinə çatdırılmaması üçün məlumat lövhəciyində yer alıb. Üstəlik, tomat məhsulların yararlılıq müddəti ən aşağısı 2 il olmalıdır. “SSSR” və “Senyor”un yararlılıq müddəti yarıbayarı azdır. Belə görünür ki, istehsalçı dolayısı ilə özü də məhsulun təmiz pomidordan hazırlanmış tomat pastası olmadığını etiraf edir.

Bəs belə məhsullar Azərbaycana necə ayaq açır və onların ölkəyə gətirilməsinin qarşısını dövlət orqanları niyə almırlar?

Qeyd edək ki, ölkə prezidenti İlham Əliyev iş adamlarına GMO-məhsulların ölkəyə gətirilməməsi ilə bağlı dəfələrlə çağırış edib. Ekoloqlar da qida təhlükəsizliyi baxımından bu məhsulların ölkəyə daxil olmasının qadağan edilməsinin vacibliyini bildirirlər.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Sumqayıtda dəhşətli olay - maşında iki sevgilinin meyiti tapıldı

**Sumqayıtda dəhşətli hadisə baş verib. Sumqayıt Şəhər Prokurorluğundan Qafqazinfo-ya verilən məlumata görə, maşında gənc oğlanla qızın meyiti tapılıb. Hadisə iyulun 22-dən 23-nə keçən gecə, şəhərin “3-cü kvartal” ərazisinin həyətindəki qarajda qeydə alınıb.**

Sayt hadisə ilə bağlı bəzi təfərrüatları əldə edib. Məlum olub ki, əsgərliyə getməyə hazırlaşan Kənan sevgilisi Sevinc Mütəllimova ilə qarajlarında görüşüb. Maşında kondisioneri yandıran cütlük bir neçə saat sonra zəhərlənərək vəfat edib.

Qızın valideynləri onun evdə yoxluğundan narahat olublar və axtarışa başlayıblar. Nəticədə sözügedən qarajda gənclərin meyiti aşkarlanıb. Qeyd edilir ki, hadisə baş verən günün səhəri (iyulun 23-ü) Kənan əsgərliyə getməli imiş, o, sevgilisi ilə vidalaşmaq məqsədilə görüşüb.

Saytın əldə etdiyi başqa bir məlumata görə, həmin gün Kənan Sevinci qaçıraraq evə gətirmək istəyib. Amma oğlanın ailəsi buna qarşı çıxaraq, Kənana qızı öz evlərinə qaytarmağı tapşırıb. Ailə qızı qəbul etmədiyinə görə cütlük sığınacaq kimi qarajdakı maşını seçib.

Sevinc Mütəllimova Kooperasiya Universitetinin 2-ci kurs tələbəsi idi. Kənan isə Ukraynada təhsil almışdı.

YENİ MÜSAVAT
N 160 (6481) 25 iyul 2016




# Bankların bağlanmasının pərdəarxası: Mərkəzi Banka ittihamlar...

## Əkrəm Həsənov: "Maliyyə Bazarlarına Nəzarət Palatası bildirir ki, MB indiyədək saxtakarlığı ifşa etməyib, pozuntulara göz yumub"...

**"Əmanətlərin Sığortalanması Fondunun pulu yoxdur. Belə çıxır ki, sığortalanmış əmanətləri Mərkəzi Bank qaytaracaq". Bunu ekspert Əkrəm Həsənov dörd bankın bağlanmasından sonra yaranacaq vəziyyətə dair sualımızı cavablandırarkən deyib. Ekspertin sözlərinə görə, Maliyyə Bazarlarına Nəzarət Palatası Mərkəzi Bankı ittiham edir: "Bankların bağlanması artıq adi hala çevrilib. Amma nə bu il, nə də əvvəllər Mərkəzi Bank demirdi ki, bunu həmin bankların ona təhrif edilmiş hesabatlar təqdim etdiyinə görə edir. Mərkəzi Bank adətən bağlanma səbəblərini bankın maliyyə göstəriciləri üzrə tələblərin pozulması ilə əsaslandırırdı. İndi isə Maliyyə Bazarlarına Nəzarət Palatası 4 bankın bağlanmasını o cümlədən təhrif edilmiş hesabatların təqdim edilməsi ilə əsaslandırdı. Yəni söhbət sözügedən 4 bankın sırf hansısa obyektiv, devalvasiya, böhran və sair səbəbdən çökməsindən getmir. Bu banklar nəzarət orqanına saxta hesabatlar təqdim edib".**

Onun sözlərinə görə, buna görə də onların sahibləri və menecerləri hətta cinayət məsuliyyətinə də cəlb oluna bilərlər: "Cavabsız qalan başqa şeydir: təhrif edilmiş hesabatlar kimə təqdim olunub: Mərkəzi Banka, yoxsa Palataya? Böyük ehtimalla ilk növbədə 24 il ərzində bank nəzarətini həyata keçirmiş Mərkəzi Banka. Bəs Mərkəzi Bank niyə saxtakarlığı ifşa etməyib? Axı bütün bankları vaxtaşırı yerində də yoxlayıb. Deməli, pozuntulara, aldığı hesabatlarla reallıq arasındakı fərqlərə göz yumub. Ona görə ki, Mərkəzi Bank rəhbərliyi ilə kommersiya banklarının rəhbərliyi arasında dostluq, qohumluq və sair qeyri-rəsmi və bəlkə də cinayətkar xarakterli əlaqələr çox dərindir".

Ekspert martın 1-də "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun qüvvəyə minməsinə də diqqət çəkib: "Onadək xeyli bank bağlandı. Hamı da düşündü ki, ən pis banklar ona görə bağlanır ki, əmanətlərin tam sığortalanması sistemi onların əmanətçilərinə şamil olunmasın. Çünki "Bank Technigue"nin bağlanmasından sonra Əmanətlərin Sığortalanması Fondunda vəsait tükənmişdi və o, Mərkəzi Bankdan kredit götürməyə məcbur olmuşdu. O zaman mən deyirdim ki, əslində bağlanmalı olan bankların sayı daha çoxdur, amma Mərkəzi Bank onları bağlamadı və Fondu gələcək risklərlə üz-üzə qoydu. Əvvəla, ona görə bu sayda bankın eyni zamanda bağlanması Mərkəzi Bankın illər boyu həyata keçirdiyi bərbad fəaliyyəti tam ifşa edəcəkdi. Digər tərəfdən isə martın 1-nə artıq məlum idi ki, bank nəzarəti səlahiyyəti Mərkəzi Bankdan Palataya keçəcək. Buna görə də Mərkəzi Bankı artıq bərbad bankların qalması və bununla da Əmanətlərin Sığortalanması Fondu üçün təhlükə yaratması maraqlandırmırdı. Əksinə, Mərkəzi Bank bağlanmalı olan bankların xeylisini bağlamadı və qısqanclıqla qarşıladığı Palata üçün problem yaratdı. Görəsən həmin banklar nəyin müqabilində buna nail oldular? Bu sualın cavabı yəqin ki, hüquq-mühafizə orqanlarının işi olacaq. Palataya səlahiyyətləri ötürərkən ona bildirdi ki, bankların hesabatlarına görə vəziyyətləri məqbuldur və bağlanmalarına ehtiyac yoxdur.

Buna görə də Palatanın bankları "təhrif edilmiş hesabatları təqdim etdiklərinə" görə bağlaması bu gün deməsi əslində Mərkəzi Banka qarşı ittihamdır. Yəni illər boyu banklar saxta hesabatlar verib, Mərkəzi Bank buna göz yumub, onları bağlamayıb və bu şəkildə də Palataya ötürüb. Palata isə həmin bankları yerində yoxlayıb və təhrifləri aşkar edib".

Ə.Həsənov qeyd edib ki, bu isə artıq həm həmin bankların, həm də Mərkəzi Bankın rəhbərliyinin fəaliyyətinin cinayət xarakterli olmasını düşünməyə əsas verir: "Bundan başqa, bankların indi bir-bir bağlanması əmanətlərin tam sığortalanması mexanizmini işə salacaq. Proses davam edəcək, çünki Palata tərəfindən yoxlamalar digər banklarda da aparılır. Əmanətlərin Sığortalanması Fondunun isə pulu yoxdur. Belə çıxır ki, sığortalanmış əmanətləri Mərkəzi Bank qaytaracaq. Bütün bunlar bank sisteminin nə dərəcədə ağır və qeyri-müəyyən vəziyyətdə olmasından xəbər verir. Dövlət qurumlarındakı özbaşınalıq və hərc-mərclik, aralarındakı münaqişələr bu problemləri daha da dərinləşdirir".

O, bağlanan banklarda sığortalanmayan əmanətlərin və digər vəsaitlərin sahiblərinə də müraciət edib: "Boş dursanız, bir qəpik də geri ala bilməyəcəksiz. Həmin bankların və Mərkəzi Bank rəhbərliyinin məsuliyyətə cəlb olunmasını tələb edin, pullarınızın batmasının günahkarı onlardır. Ləğvetmə proseslərinə nəzarət edin, fəal olun".

❑ RÖYA

# Ölkələr idarəetmə modellərini dəyişir - Azərbaycan üçün ən uyğun sistem...

## Qabil Hüseynli: "Parlamentar üsul-idarə daha səmərəli ola bilərdi"

**Zaman-zaman, indinin özündə də dünya dövlətlərində tez-tez idarəetmə modellərinin dəyişdirildiyi, yaxud buna cəhd edildiyi müşahidə olunur. Türkiyədə prezident üsul-idarəsinə, təcavüzkar ölkə olan Ermənistanda parlamentli respublikaya çevrilmək üçün aparılan siyasət, son olaraq da Referendum Aktı ilə Azərbaycanda bunun rüşeymlərinin görünməsi bu məsələləri bir daha gündəmə gətirib.**




Dövlətləri buna məcbur edən nədir? Bu dəyişikliklər ölkələrin spesifik xüsusiyyətlərindən irəli gəlir, yaxud hansısa qrupların maraqlarına xidmət edir? Azərbaycan üçün ən uyğun model hansıdır? Bu məsələlər ətrafında sual doğuran müzakirələr bunlardır.

Ümid Partiyasının sədri İqbal Ağazadə hesab edir ki, belə dəyişikliklər qrupların maraqlarından doğur: "Bunlar spesifik xüsusiyyətdən irəli gəlmir. Sadəcə, hansısa qrupun idarəçiliyinə uyğun gələn modelin tətbiqi üçün cəhdlər edilir. Hansı idarəçilik formasının xalqa uyğun olduğunu axtaranlar ölkələrini normal yerlərə aparırlar, fayda verə bilirlər. Əks halda qrupların faydası üçün edilirsə, bu cəmiyyətlə üst-üstə düşmür. Uzun zaman keçmədən qruplar və cəmiyyət arasında qarşıdurmalar yaranır. Bu da sonda xaosa çevrilir".

Partiya sədri Azərbaycan üçün uyğun olan modeli də açıqladı: "Cümhuriyyətçilik idarəçiliyi ölkəmiz üçün uyğun variant idi. İcraedici, qanunverici və məhkəmə sistemlərinin səlahiyyətləri düzgün bölüşdürülmüşdü. 1995-ci il konstitusiyasında da bunlar öz əksini tapmışdı. Amma sonra konstitusiyaya edilən dəyişikliklər, təəssüf ki, mahiyyəti dəyişdi. Prezident üsul-idarəsi ölkəmiz üçün bərpa olundu".

Politoloq Qabil Hüseynliyə görə isə bəzən yaranan situasiyalara görə dövlət belə dəyişikliklərə gedir: "Başqa ölkələrdə sınaqdan keçirilən idarəetmə formasının müsbət olduğunu görüb, öz ölkələrinə tətbiq edənlər də var. Avropa ölkələrinin çoxunda belədir. Orada sosial dövlət deyilən bir anlayış var. Bu anlayışın tələblərindən biri odur ki, hər bir vətəndaşın yaşayışını təmin edən məhsuldar idarəçilik yaradılmaqdır. Amma sirr deyil ki, bəzi dövlətlərdə bu cür dəyişikliklərə gedilərkən bir şəxsin, yaxud bir qrupun maraqları ön plana çəkilir. Avtoritar xarakterli, hakimiyyətin sərt idarəçiliyi tətbiq olunur. Nəticədə hakimiyyət qolları arasındakı əlaqələr qırılır və sərt mərkəzləşmənin qurbanı olurlar. Nəticə etibarı ilə də hakimiyyətin üç əsas qolu bir şəxsin və ya bir qrupun əlində mərkəzləşmiş olur. Bu idarəetmə sistemi ola bilər ki, müəyyən dövrlərdə səmərə versin. Müharibə şəraiti və digər məsələləri qeyd etmək olar. Amma əbədi bir prosesə çevriləndə, orta dövrlərdəki padşahlıq ənənəsinin bərpasına səbəb olur. Beləliklə də səmərəli olmaya bilər. Amma indi XXI əsrdir. Bu əsrdə dövlət modelləri demokratiya, insan haqları, açıq tipli cəmiyyəti özündə ehtiva edir. Türkiyə prezident üsul-idarəsinin qurulmasına çalışır. Amma bu demokratiyanın boğulması anlamına gəlməməlidir. Sadəcə, prezident hakimiyyətinin ölkədə gedən bəzi proseslərə görə daha effektli olması üçün belə edilir. Burada Ərdoğanın müəyyən ambisiyalarının olduğunu da etiraf etmək lazımdır. Amma hər halda müvəqqəti olsa da, bu, Türkiyəyə lazım ola bilər. Ona görə də bu sistemə getmək istənilir. Amma xalqın buna icazə verib-verməyəcəyini demək çətindir".

Politoloq Azərbaycan üçün olan optimal idarəçilik formasından da söz açdı: "Azərbaycan müharibə şəraitində yaşadığından, bir sıra problemlərin mövcudluğuna görə ölkəmiz üçün ən uyğun model prezident üsul-idarəsidir. Əgər Dağlıq Qarabağ problemi olmasaydı, deyərdim ki, parlamentar üsul-idarə daha səmərəli ola bilərdi. Amma hər halda ağır problemlərimiz olduğu üçün bizə möhkəm hakimiyyət, cəmiyyətin bu hakimiyyətin ətrafında cəmlənməsi üçün bunların həmısı dövlətimiz üçün keçərli ola bilər".

❑ Cavanşir ABBASLI

# Bu təklif ermənilərdə şok effekti yaradacaq




**Beynəlxalq Mətbuat Mərkəzində (BMM) "Qərbi Azərbaycana (Ermənistana) qayıdış birliyi"nin (QAQB) təşkilatçılığı ilə bir qrup Qərbi Azərbaycanlı ziyalının iştirakı ilə toplantı keçirilib.**

Toplantını giriş sözü ilə açan QAQB-nın sədri Rizvan Talıbov bildirib ki, İrəvan xanlığının paytaxtı olmuş tarixi Azərbaycan şəhəri İrəvanın erməni daşnaklarına 99 il müddətinə paytaxt olaraq verilməsi haqqında Azərbaycan Demokratik Cümhuriyyətinin qərarına yenidən baxılmalı və o qərar ləğv edilməlidir.

O təklif edib ki, Gədəbəy rayonu ərazisində ermənilərin 30 ilə yaxındır ki, tərk etdikləri boş qalmış, dağılmış Köhnə Başkənd kəndinin yerində 10 min nəfər əhalinin yaşaya biləcəkləri qəsəbə salınsın və həmin qəsəbədə ermənistanlı qaçqınlar məskunlaşdırılsın: "Elə etməliyik ki, gələcəkdə ermənilər həmin əraziyə iddia irəli sürməsinlər".

Çıxış edənlər sədrin təklifini bəyəndiklərini və bunun ermənilərdə şok effekt yaradacağını vurğulayıblar.

Məsləhət edilib ki, ildə bir dəfə Qərbi Azərbaycanlıların deportasiya edilməsi günü qeyd edilsin və Azərbaycan hökuməti tərəfindən ayrılmış hər hansı bir məkan ziyarət yerinə çevrilsin, ermənilərin törətdikləri o vəhşiliklər zamanı dünyasını dəyişənlərin ruhları yad edilsin.

Tədbirin sonunda Azərbaycan prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

YENİ MÜSAVAT
N 160 (6481) 25 iyul 2016

# "İt ölən" binada xəstəliyə tutulan sakinlər: "Uşaqlara yazığınız gəlsin!.."



**Binəqədi rayonu, 6-cı mikrorayondakı "skorunun binası" kimi tanınan binada yaşayan sakinlər acınacaqlı durumdadır. Binada məskunlaşan onlarla ailə kommunal problemlərdən əziyyət çəkir. Qəzalı vəziyyətdə olan binada 100-dən çox ailə yaşayır. Sakinləri sarasında əsasən məcburi köçkünlərin çoxluq təşkil etdiyi bina yaşanmaz hala gəlsə də, sakinlər məcburi şəkildə yaşamaqda davam edirlər.**

Bu çoxmərtəbəli binada demək olar ki, boş mənzil yoxdur. Elə məcburi köçkün ailələri var ki, mənzil olmadığı üçün binanın zirzəmisində belə yaşamağa məcbur qalıb. Rütubət və havasızlıqdan azyaşlı uşaqlar xəstəliyə yoluxublar.

Zirzəmidə məskunlaşan ailələrin təmsilçiləri musavat.com-a düşdükləri acınacaqlı durumdan danışıblar: "Xocalı rayonundan qaçqın düşmüşük. 1993-cü ildən bu ərazidə məskunlaşmışıq. Xarabalıqda, üfunət qoxulu yerlərdə yaşamaqdan xəstəliklər tapmışıq. Normal qaz, su yoxdur. Binanın həyəti zibilxanaya çevrilib. Zibil tullantılarını heç kim təmizləmir. MİS və Binəqədi Rayon İcra Hakimiyyəti bizimlə maraqlanmır. Buraya belə ad qoyublar: "it ölən". Yəni burada it də yaşamaz. Azyaşlı körpələrimiz var. Biz zülmdə yaşadıq, heç olmasa, onlara yazığınız gəlsin".







Xocalı rayonundan məcburi köçkün olan Leyla Səyyadova mənzil siyahısına düşmək üçün "Qaçqınkom"dan ona boşanma təklifi edildiyini bildirdi: "Qaçqınkom"da deyirlər ki, sənə ev düşmür. Gərək həyat yoldaşından boşanasan ki, səni ev siyahısına yazaq. Deyirlər ki, Şamaxı vətəndaşı olduğu üçün gərək boşanasan. Mən başa düşə bilmirəm, hansı qanunda belə yazılıb. Özüm, uşaqlarım xəstədir. 3 azyaşlı körpəm var, onların da ciddi xəstəlikləri var. Oğlum hepatitdir. Xahiş edirəm ki, bizə yardım olunsun".

Daha ətraflı saytlımıza yerləşdirilən videodan tanış ola bilərsiniz.

❑ **Məğrur Mərd,**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**


# Şou-biznes əhli gündəmi izləyirmi?

## Sənətçilərin əksəriyyəti baş verənlərdən xəbərdar olduqlarını deyir...

**Neçə gündür ki, dünyanın gündəmini Türkiyədə baş vermiş hərbi çevrilişə cəhd və sözügedən hadisədən doğan olaylar zəbt edib. Azərbaycanda isə Qafqaz Universitetinin öncə bağlanma xəbəri, daha sonra rəhbərlik dəyişikliyi, ANS telekanalının 1 aylıq bağlanması ən çox müzakirə olunan hadisələrdir.**

Bəzi sənət adamları da son zaman yaşananlara biganə qalmır, onlar öz fikirlərini sosial şəbəkə vasitəsilə bildirirlər. Digər qrup sənətçilər isə öz fəaliyyətlərini və yay istirahətlərini davam etdirirlər. Bəs, gündəmin tez-tez dəyişdiyi bir vaxtda tanınmışlar hansı xəbərləri oxuyurlar? Baş verən hadisələrdən xəbərdardırlarmı?

Musavat.com-un əməkdaşı onlar arasında sorğu keçirib və sou-biznes əhlindən gündəmi izləyib-izləmədiyini soruşub.

Əməkdar artist Lalə Məmmədova bildirib ki, son günlər Türkiyədə baş verən hadisələri izləyir: "Türkiyədə baş verənlər məni çox məyus etdi. ANS-in aqibəti də adi vətəndaş kimi məni narahat edir. ANS həmişə xalq ilə birlikdə olub. Hər kəs səhv edə bilər, dəşdan, divardan deyilik. ANS-in xalqa qaytarılmasını istəyirəm. Çünki hər zaman yanımızda olublar, qapılarını xalqın üzünə açıblar ən qaynar nöqtələrdən məlumat veriblər, insanları informasiya ilə təmin ediblər. Bir vətəndaş kimi ANS-in bağlanması ürəyimi ağrıdır. Bəzən şou-biznes xəbərlərini də oxuyuram. Xəbər başlığından artıq söhbətin nədən getdiyini bilirəm. Mən hansısa sənət yoldaşım ailə quranda, ana olanda, yaradıcılığında dönüş edəndə sevinirəm. Amma sənətdən xəbəri olmayan "ifaçı"nın hansısa xəbərlə, foto ilə gündəmə gəlməsi ürəyimi ağrıdır, bir tərəfdən isə ürəyimi bulandırır. Çünki onlar sənətimizi gözdən salırlar. Onlara yer ayıran mətbu orqanları qınayıram. Niyə onlara yer ayırıb insanların əsəbi ilə oynayırlar? Baxırsan ki, modeldir və ya kiminsə sevimli qadınıdır, populyarlıq qazanmaq üçün müxtəlif işlərə əl atırlar. Bu cür xəbərlər insanları bezdirir".

Müğənni Natəvan Həbibi bildirib ki, gündəmdə yer tutan xəbərləri daim izləyir: "Səhər gözümü açan kimi xəbər portallarını açıb oxuyuram. Sonra İnstagram-da yayılan foto və məlumatları izləyirəm. Son zamanlar Türkiyədə baş verən hadisələr, ANS-in bağlanması hamımızı üzdü. Gündəmdə olan bütün olaylardan xəbərdaram. Çalışıram ki, şou-biznes xəbərlərini oxumayım, həm mənə maraqlı deyil, həm də boş insanlar və söhbətlər çox olduğu üçün əsəb keçirirəm. Onlar haqda nə isə bilmək istəmirəm".

Xanəndə Gülay Zeynallı isə bildirib ki, xəbərləri izləmir: "Özümlə bağlı xəbərləri oxuyuram. Xəbərlərlə, baş verən hadisələrlə maraqlanan deyiləm. Mən qəzet oxuyan, xəbərlər proqramını izləyən insanlardan deyiləm. Ancaq maraqlı xəbər qarşıma çıxanda oxuyuram. Belə də ki, dünyada baş verənlər Allahın qismətidir".

Müğənni Lətifə Soyuöz də mətbuatı izləyənlərdir: "Türkiyədə baş verənlərdən xəbərdaram. Dünyada və ölkədə baş verənləri izləyirəm. Lazım olanda sosial şəbəkədə münasibətimi də bildirirəm. Uşaqlıqdan evimizdə görmüşəm ki, "Xəbərlər" proqramı başlayanda sükut çökür və hamı bir nəfər kimi izləyir. İctimai-siyasi xəbərlərə yanaşı, şou-biznes xəbərlərini də izləyirəm. Bilmək istəyirəm ki, həmkarlarım hansı mahnını oxuyub, necə klip çəkdirib. Müğənnilər tez-tez deyirlər ki, bizim kanalları izləmirlər, xəbərlərdən məlumatsızdırlar. Ancaq işlərini görüb efirə verirlər. Bunlar hamısı ağ yalandır. Mən köşədə qalan müğənninin də yaradıcılığını izləyirəm. Biz digərlərini izləməliyik ki, rəqabət apara biləк. Kimsə yaxşı klip çəkirsə, düşünürəm ki, mən lap yaxşısını çəkməliyəm. Xoşuma gəlməyəndə o səhvləri etmirəm. Kiminsə yeni mahnısı işıq üzü görəndə mən də yeni mahnılar yazdırıram".

❑ **Könül İBRAHİM**


# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 160 (6481) 25 iyul 2016

**Bu cür xəbərlərə tez-tez rast gəlmək olur yerli mətbuatda. Dünya mətbuatından isə heç danışmıram, onlar üçün adiləşib. Toy günü, toydan öncə evdən qaçan gəlin xəbərlərindən danışıram. İndi əksər filmlərin, serialların, kliplərin içində belə mənzərələr çoxdur. Bəzilərinə görə, bu, romantikadır, inqilabdır, üsyandır... Əslində isə nədir?**

# Onlar da qaçırlar, amma... gələcək ərlərindən...

## Toy günü ərlərini, nişanlılarını tərk edən qızların maraqlı hekayətləri

Daha çox serialların, Türkiyə və xarici filmlərin sevimli ssenarisi olan bu “evdən qaçan gəlin” mövzusu günümüzə daşınıb. Məlum, xaricilərdə gəlinlər toyun depressiyasına dözmədikləri, evliliyin çətinliyinə tab gətirməyəcəklərini anladıqları üçün “yol yaxınkən” əyinlərində ağ gəlinlik libası məkanı tərk edirlər. Filmə daha çox məna qatmaq üçün bəzən gəlinlərin nikah məmurunun məlum sualından dərhal sonra “start” düyməsinə basıb, qaçması səhnəsi klassikdir...

“Siz, filankəsova filankəs bəhmənkəsov bəhmənkəslə evlənməyə razısınızmı?” Bax, bu ədəbi və əzəli sualın ardınca gəlin də dabanına tüpürüb aradan çıxır. Tapa bilənə halal olsun...

**Gəlinlər qaçır, çünki zorla evləndirilirlər**

Amma sosioloji araşdırmalar səbəblərin bu qədər bəsit olmadığını sübut edib. Məlum olub ki, toyundan qaçan xanımlar bir neçə kateqoriyaya bölünür. Başlayaq birincidən.

Zorla evləndirilən qadınlar: bu qadınlar ailənin basqısı ilə evlənirlər. Ailə ya pulun gücü, ya da böyüklərin məsləhəti ilə qızı sevmədiyi oğlanla evləndirməyə qərar verir. Əgər qız cəsarətlidirsə və hər şeyi göz önünə alıbsa, ilk fürsətdə evdən qaçır. Təbii ki, qaçanda da özünü maddi cəhətdən təmin etmək üçün toyda alınan qızıl əşyalarını və pulları da götürür. Bu arada bir haşiyə çıxaq ki, toyundan qaçan gəlinlərlə bağlı statistika Türkiyədə də xeyli zəngindir. Bu halda gəlinlər toy günü qonaqların hədiyyə olaraq taxdığı zinət əşyaları və pulları da götürüb aradan çıxır. Çox vaxt da Türkiyədə dələduz qızların, qadınların asan yolla pul qazanmaq üçün belə toy teatrlarından istifadə etdiyi üzə çıxır.

Sözügedən situasiyada daha çox bəylər zərərçəkən sayılır. Həm maddi, həm mənəvi. Adamların bütün toy xərci batır, üstəlik, imiclərinə vurulan zərbə də onları məhv edir. Bu halda bir çoxu gəlinin izinə düşür, bəziləri isə “məni istəməyəni mən dünəndən istəmərəm” məntiqi ilə gəlini unudur. Vəkil-məhkəmə yolu ilə onu tərk edən qadından intiqam almaq istəyən bəylər sayca azlıq təşkil edir. Bu, daha çox kuryoz hadisələrin baş verdiyi Avropa ölkələrində ola bilər.

**Bütün qır-qızılı oğurlayır və sonra bəyi tərk edirlər**

İkinci kateqoriya isə soyğunçuluq etmək üçün toydan qaçan gəlinlərdir. Yuxarıda onlar barədə xırda məlumat vermişdik. Bu cür qadınlar haqda xüsusi nələrsə danışmağa ehtiyac yoxdur. Onlar mafiya kimidir. Xüsusən yaşlı, ya da əlil, köməksiz kişilərlə ailə qururlar. Toy günü isə yığılan pulu, zinət əşyasını götürüb aradan çıxırlar.



Üçüncü kateqoriya daha ilgincdir: onlar ailə təzyiqindən qurtulmaq üçün evlənən qızlardır. Bu cür qızlar ailəsindən qurtulmaq üçün bu yola baş vururlar. Saçına, makiyajına, küçəyə çıxmasına müdaxilə edilən bu qadınlar ya qohum-əqrəbadan, ya da məhəllənin gənclərindən birini “qurban” olaraq seçir, evləndiyi gün aradan çıxır. Bu kateqoriyadan olan qızların zinyət əşyalarını özüylə aparması və sair dələduzluq etməsi görünməyib.

Keçək dördüncü kateqoriyaya. Bu da sevdiyi adamla evlənmək üçün başqasıyla evlənən qadınlardır. Yanıltmac kimi səsləndiyinin fərqindəyik. “Sevdiyi ilə evlənmək istəyirsə, elə onunla evlənsin də” deməyə tələsməyin. Həyatda hər şey ola bilər. Bu kateqoriyadan olan qızlar sevdikləri ilə ya vəlvələdən, ya zəlzələdən ayrıla bilər. Ailəsi onu başqası ilə evləndirən gün isə radikal qərar verib qaçar. Bundan başqa, sevdiyi çox kasıb, imkansız biridirsə, qız yenə də toy günü qızılları götürüb aradan çıxmaq perspektivini düşünüb, toydan qaça bilər və sair.

Türkiyəli sosioloqlar bu mövzu ilə bağlı daha bir maraqlı kateqoriya da aşkarlayıblar. Məlum olub ki, zifaf gecəsi travması ucbatından qaçan qızlar da az deyil. Bakirə olmayan və bunun üzə çıxacağının qorxusu onları son anda yaxalayır və aradan çıxırlar.

Digər kateqoriya isə evlənmək üçün canfəşanlıq edib, son məqamda bundan sıxılan qızlardır. Onlar daha çox uşaq yaşda olurlar. Evlənmək üçün tələsirlər, çünki bunu da evcik-evcik oyunu kimi görürlər. Son məqamda isə bunun oyun olmadığının fərqinə varırlar ki, nəticəni də siz bilirsiz. Qaçan gəlin və onun arxasınca saçını yolan anası, pərt vəziyyətdəki atası...

**Bəyin istəklərindən qorxan gəlinlər**

Toydan qaçan gəlinlərin öz izahatları, hekayələri isə tamam fərqlidir. Yəqin xatırlayırsız, Lənkəran rayonunun Havzava kəndində baş tutan qəribə toy haqda məlumat vermişdik. Bu toyun qəribəliyi onda idi ki, toyuna iki gün qalmış 18 yaşlı gənc qız qəfil yoxa çıxmışdı. Bu xoşagəlməz məqama baxmayaraq, toy baş tutmuşdu. Məsələn, həmin qız - Günəş Mənsimzadə toydan qaçmasını belə izah edirdi: “Atam hər zaman mənə fiziki təzyiq göstərirdi. Günün birində Nazim Həsənov adlı birisi mənə elçi gəldi. Ailəm məni ona vermək istədi, ağladım. Dedim ki, mən oxumaq istəyirəm, ərə getmək istəmirəm. Amma ailəm mənim dediyimə məhəl qoymadı. Bir il sonra nişan oldu. Oğlan məndən 10 yaş böyükdür. Bizim dünyagörüşümüz tamamilə fərqlənirdi. Onun istəkləri tamam başqa, mənim istəklərim isə tamamən başqa idi. İlk gündən Nazim Həsənovla mübahisələrimiz başladı. O, məndən elə şeylər istəyirdi ki, mən isə onu istəmirdim”.

**Qaçırsansa, son məktubunu da yazmalısan**

“...Mən gedirəm. Bilirəm ki, çox şayiələr qoşacaqlar. And olsun Yaradana, tək gedirəm. Qız var anasıyla qalır, onlarda qalacam bir müddət. Onların yanında da işləyəcəyəm. Bu toy olsa, bədbəxtçiliklə bitəcək sonda. Yaxşısı budur, olmasın. Bəri başdan evlənməmək daha yaxşıdır. Zəhləmiz gedir bir-birimizdən. Evlənmək rüsvayçılıq olardı”. Bu da elə haqqında danışdığımız gəlinin yazdığı məktub.

Sosioloqlar hesab edir ki, evdən qaçma da intihar aktına bənzəyir. Belə ki, qəfil və radikal qərar verən şəxslər bunun açıqlamasını da yaxın ətraflarına verməyi özlərinə borc sayır. Mütəxəssislərin fikrincə, bu, həmin şəxslərdə məsuliyyət hissinin olmasından xəbər verir.

2013-cü ildə Ağcabədidə baş vermiş bənzər olayda isə tamam fərqli nüanslar üzə çıxmış və məsələ məhkəmədə bitmişdi. Ağcabədi Rayon Məhkəməsində zərərçəkmiş bəy - Balabəy Əliyevin anası Zülfiyyə Əliyevanın müraciəti əsasında məhkəmə baxışı keçirilib. Z.Əliyeva məhkəmədə toya çəkilən xərc və qıza alınmış qızılları tələb edib. Qeyd edək ki, Z.Əliyeva əvvəlcə hüquq-mühafizə orqanlarına müraciət edib. Lakin işdə cinayət tərkibi aşkarlanmayıb. Ona görə də iş məhkəməyə göndərilib.

Xatırladaq ki, toydan qaçan gəlin “102" qaynar xəttinə zəng vurub və zorla ərə verildiyini bildirərək, hüquq-mühafizə orqanlarından yardım istəyib. Rayon polis şöbəsindən bildirilib ki, qız gəlinlik paltarında dayısı arvadı ilə birlikdə şöbəyə gəlib. Gəlin iddia edib ki, o, öz dayısı oğlunu sevir. Mübahisəli vəziyyəti araşdırmaq üçün bəy tərəfi də polisə dəvət olunub. Dindirildikdən sonra oğlan tərəfinin bu işdə heç bir günahı olmadığı müəyyənləşib.

**Bizdə həmin adamı kənddən qovurlar, xaricdə isə...**

“Toy günü polisə müraciət edərək, zorla ərə verildiyini deyən Pünhanə və onun ailəsi avşarlı ola bilməz. Onlar Ağcabədinin Avşar kəndinə Ermənistandan köçüb”.

2013-cü ildə Ağcabədinin Avşar kəndində toyundan qaçan gəlinə etiraz olaraq kənd sakinləri mediaya belə bir məktub yollamışdılar. 20 nəfər kənd sakininin imzaladığı məktubda qeyd edilmişdi ki, belə bir biabırçı olaya imza atanların avşarlı kimi təqdim edilməsi onların qüruruna toxunub. Kənd sakinləri redaksiyamıza ünvanladıqları məktubda vurğulayıb ki, Avşar kəndinin camaatı böyüyün, kiçiyini yerini bilən olub. Bu kəndin insanları ağsaqqalına hörmət edib, ənənələrinə dəyər verib.

Toy qalmaqalı ilə mətbuatın gündəminə gələn ailənin avşarlı kimi təqdim edilməsinin əleyhinə çıxan kənd sakinləri mətbuata müraciət edib. Onlar kütləvi informasiya vasitələrindən xahiş ediblər ki, sözügedən ailəni avşarlı kimi təqdim etməsinlər: “Həmin ailə isə Avşar kəndindən ola bilməz. Odur ki, bütün kütləvi informasiya vasitələrinə üz tutaraq bildiririk ki, ailəni avşarlı kimi təqdim etməsinlər”.

Kənd sakinləri həmin ailəyə qarşı çox qəzəbli olublar. Hətta bir qrup gəncin hansı yolla olur-olsun ailəni kənddən köçürəcəkləri barədə qərar qəbul etdikləri də bildirilir.

Xaricdə isə adətən bu cür gəlinlər günün məşhuruna çevrilir. Onlardan müsahibələr alınır, verilişlərə dəvət edilir və əgər bəxtləri gətirsə, məşhur olurlar. Əcnəbilər üçün bu, cəsarət nümunəsi, öz həyatına sahib çıxma cəhdidir.

**Onlar hüquqlarını bilmirlər, əks halda polisə müraciət edərdilər**

Ekspertlər isə bu məsələdə bir neçə nüansın üzərində dayanır. Məsələn, sosioloqlara görə, qızların qaçmasının hüquqlarını bilməsi ilə heç bir əlaqəsi yoxdur, elə olsa, onlar ilk olaraq polisə müraciət edərdilər. Onlar bu qaçışla sadəcə, aqressiya, üsyan və romantika nümayiş etdirirlər. Burada daha bir nüans da var ki, evdən qaçan gəlinlərin qarşı tərəfə qarşı məsuliyyət və öhdəlik hissi yoxdur. Onlar təkcə evlənəcəkləri adama yox, bütün ailəsinə, çevrəsinə zərbə vururlar.

Bəs bu halda qızlar məcburi nikaha etiraz olaraq niyə polisə müraciət etmirlər? Əslində buna səbəb cəmiyyətdəki basqıdır. Belə ki, qızlar qarşı tərəf üçün öhdəlik, məsuliyyət hissi daşımırlar. Bu da insanların qapalı olmasından irəli gəlir. Bundan başqa, bəzi gənc xanımlar müstəqil olmaq istəyirlər. Onlar özlərini müstəqil şəkildə idarə edə biləcəklərini hesab edirlər. Müstəqil yaşaya bilmək üçün də evdən qaçırlar. Bundan başqa, evdən qaçanlara elə gəlir ki, onlar həyatda gözəl bir mənzərə ilə rastlaşacaqlar və ya böyük bir qəhrəmanlıq ediblər. Əslində qınaqla rastlaşırlar. Düşünülməmiş hərəkətlər, dünya görüşün olmaması insanları çıxılmaz vəziyyətlərə salır. Bir çox hallarda isə həyatda daha sonra yaşadıqları onları peşman edir. Çünki müstəqil həyata qədəm qoymaq, orada baş çıxarmaq, uğur qazanmaq heç də asan məsələ sayılmır.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 160 (6481) 25 iyul 2016



## Pişiyi oğurladılar, çox yediyi üçün geri qaytardılar

**Avstriyada pişik oğruları oğurladıqları pişiyi iki həftə sonra geri qaytarıblar. Rusiyanın lenta.ru saytının xəbərinə görə, iki həftə əvvəl sahibi ilə onun anasının evində qonaq olarkən oğurlanıb. Həyətdən bir az aralanan pişik dərhal heyvan oğrularının diqqətini cəlb edib. Amma bu iki həftə ərzində kök pişiyi doyuzdurmaq və kaprizlərinə boyun əyməyi bacarmayıblar. Polisin də axtardığı pişik iki həftə sonra sahiblərinə qovuşanda hamı sevinib.**

Xatırladaq ki, itkin heyvanın uzunluğu 1 metr, çəkisi isə 10 kilodan artıq olub. Ekspertlər isə deyir ki, sağlam pişik digərlərindən üç-dörd dəfə çox yeyir.



## Allaha inam xərçəng xəstəliyini sağaldır

**ABŞ-ın Missuri Universitetində aparılan bir araşdırma dünyaya səs salıb. Araşdırma nəticəsində bəlli olub ki, Allaha inanmaq insandakı ruhi xəstəliyi sağaldır. Aparılan araşdırma zamanı xərçəng, ürək-damar xəstəliklərindən əziyyət çəkən adamların arasında Allaha inananların daha tez sağalaraq şəfa tapdığı, inanmayanların isə ruhu xəstəliyə düçar olduğu aydın olub.**

Araşdırmanı aparan professor Dan Cohenin iddiasına görə, dindarlıq, Allaha inanmaq insanın eqoizmini azaldır və ona tək olmadığını, həyata, insanlara bağlı olduğunu anladır. Bu isə xəstələnmiş şəxsin həyat eşqini, yaşamaq əzmini artırır və onu həyata möhkəm tellərlə bağlayır. Nəticədə xəstələnmiş şəxs tez sağalır.

# Yemək zamanı bu barədə danışmaq qadağandır

**İngiltərədə keçirilən bir anket sorğusunda insanlara "Axşam yeməyində ən çox hansı mövzularda danışmağa nifrət edirsiniz" sualı verilib. Araşdırmaya qatılanların 1/3 hissəsi dostları da daxil olmaqla, heç kimlə cinsi münasibətləri və xəyanətləri mövzusunda danışmağı sevmədiklərini deyib.**



Ümumən anket ingilislərin özəl həyatlarındakı detallarla bağlı danışmağı sevmədiklərini ortaya çıxarıb. Yemək zamanı müzakirəsi sevilməyən mövzular sıralamasında maddi durum (28 faiz), maaş (25 faiz), ailə planlaması (19 faiz), münasibətlər (18 faiz), evin dəyəri (16 faiz), siyasət (13 faiz), ciddi xəstəliklər (9 faiz), din (7 faiz) də yer alıb.

# Korluğu dərmanla müalicə etmək mümkündür

**Kanadalı alimlər korluğun müalicəsində önəmli addımlar atıblar. McGill Universitetinin mütəxəssisləri doğuşdan kor olan bir xəstəni dərmanlarla müalicə edərək gözlərinin açılmasına səbəb olublar. Yeni dərman vasitəsi qismən kor olan, gənc yaşda gözlərini itirən, rəng koru olan, hərfləri və simaları görməyən xəstələr üçün hazırlanıb. 1997-ci ildən bəri gözünün açılması üçün çalışan Natali Fex adlı qadın dərmanın onun üzərində təcrübədən keçirilməsi üçün könüllü olduğunu deyib. Natali dərmanın ikinci dozasından sonra qaralıqla işığı seçə bildiyini, üçüncü dozada qismən gördüyünü, dördüncü dozada isə oxumağı bacardığını deyib. Mütəxəssislərin sözlərinə görə, yeni dərman görüş qabiliyyətini 10% yaxşılaşdırır.**





## Gözləri görməsə də, bu cihazla dünya onun əlindədir

**İrlandiyada yaşayan, rəngləri seçə bilməyən (rəng koru) bir adam başına taxdırdığı kameralı antena ilə rəngləri seçə, internetə bağlana bilir və telefon zənglərini başının içindən eşidir. İngiltərə vətəndaşı olan Neil Harbisson rənglərlə səsləri birləşdirib konsertlər verən bir sənətçidir.**

Rəng koru olaraq doğulan sənətçi bu problemi həll etmək üçün maraqlı bir üsul tapıb. O başına taxdırdığı kameralı antena ilə rəngləri duyaraq seçə bilir. Antena üzərindəki kameradan görülən hər rəng Harbissonun hiss etdiyi və duyduğu titrəməyə çevrilir. Bir müddət sonra rənglər səslərə, rəsmlərsə mahnıya çevrilir. Başlanğıcda bu vəziyyətin çox xaotik və qarışıq olduğunu bildirən Harbisson beş aya başının səslərə öyrəşdiyini söyləyir. Harbisson özünü "ilk insan cyborg", yəni insanla robot arasında olan canlı varlıq kimi təyin edir.

## Qoroskop (25 iyul)




**QOÇ** - Mənfi enerjili Ay bürcünüzdə qərar tutduğundan bəzi işləri təxirə salmalısınız. Hər hansı risk və ya qeyri-ənənəvi addım sizə zərər yetirə bilər. Tanrını başınız üstündə hiss edin.

**BUĞA** - Şəxsi işlərinizdə əsaslı dönüş gözlənilir. Bütün imkanlarınızı da məhz bu istiqamətə yönəltməlisiniz. Nüfuzlu və təcrübəli insanlarla görüşməyiniz sizə səmərə verə bilər.

**ƏKİZLƏR** - Təxminən saat 12-yə qədər gərgin əhval-ruhiyyədə olacaqsınız. Amma çalışın ki, bu enerjini başqasına ötürməyəsiniz. Axşam saatlarında isə ikili gəzintilərə çıxmaq olar.

**XƏRÇƏNG** - Əsas diqqətinizi ailə-sevgi məsələlərinə yönəldin. Elə addım atın ki, ünsiyyətdə olduğunuz adamların rəğbətini qazanasınız. Hər deyilən sözə və atmacalara əhəmiyyət verməyin.

**ŞİR** - "Ağac bar gətirdikcə başını aşağı salır". Çalışın siz də bu prinsipə əməl edəsiniz. Əmin olun ki, belə etsəniz, Göy qübbəsi sizə dayaq olacaq. Hətta şəxsi büdcənizi də artıra bilərsiniz.

**QIZ** - Ulduzların düzümü xoş bir gün yaşayacağınızdan xəbər verir. Maraqlı insanlarla görüşləriniz, eləcə də perspektivli təkliflər alacağınız gözlənilir. İnsanlara şübhə ilə yanaşmayın.

**TƏRƏZİ** - Mühüm bir işinizi reallaşdırmaq üçün köməyə böyük ehtiyacınız var. Amma əbəs yerə narahat olmağa dəyməz. Çünki nahardan sonra bu köməyi hiss edəcəksiniz. Odur ki, aktivliyinizi artırın.

**ƏQRƏB** - Ümumən gərgin təqvim olsa da, şəxsi büdcənizi artırmaq üçün geniş imkanlar qazanacaqsınız. Məhz bu amili nəzərə alıb pulla bağlı işlərinizi önə çəkin. Səhhətinizi də qoruyun.

**OXATAN** - Qərarlarınızda qətiyyətli olsanız, bu təqvim sizə xoş ovqat bəxş edəcək. Şəxsi işlərinizdə isə nəzərəçarpacaq irəliləyişlər labüddür. Bütün addımları ilk olaraq özünüz atın.

**OĞLAQ** - Əməkdaşlıq zəminində uğurlarınız mümkündür. Amma gərək hər bir işi qanun çərçivəsində həll edəsiniz. Axı siz məmur və ya iqtidar yetkilisi deyilsiniz. Bəxtinizdə pul da var.

**SUTÖKƏN** - Böyük uğurlar astanasında olduğunuzu nəzərə alan Göy qübbəsi sizə yardımçı olacaq. Bunun üçün gərək özünüz də əzmkar olasınız. Günün ikinci yarısında məntiqə uyğun risk etməyə dəyər.

**BALIQLAR** - Ümumi məziyyətlərinə görə bir qədər gərgin gündür. Əlalxüsus da saat 11-14 arası əsəbləriniz tarıma çəkilə bilər. Ən düşərli məqamları isə yalnız məhəbbətdə yaşayacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Zarafat etmək istədi, bir nəfər öldü, biri huşunu itirdi



**Cek Fen adlı macar arvadını qorxutmaq üçün evdə özünü asmış kimi göstərir... Evə gələndə ərini bu halda görən qadın isə ərinin gerçəkdən də öldüyünü zənn edərək, huşunu itirir. Bu sırada evin qapısını açıq görən qonşu qadın isə elə bilir ki, hər iki gənc ölüb. O, evi qarət etməyə başlayır. Oğurladıqları ilə evdən çıxmaq istəyərkən, Cek qadına bir təpik atır. Qadın cəsədin dirildiyini zənn edir və qorxudan ölür. Cek sonradan məhkəmədə bəraət edir.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750